Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

17 APREL 2020-ci il

№ 59 (4190)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN KORONAVİRUS DÖVRÜNDƏ «PUL YIĞMAQ ÜSULU» - BÜDCƏYƏ PUL QAYTARMAQ MÜMKÜN OLAN CİNAYƏT İŞLƏRİNİ YENİDƏN AÇDIRDI

■ səh. 8 ■

Azərbaycanda koronavirusa qədərki heç bir sosial layihənin təxirə salınmayacağına yüksək təminat verildi...

■ səh. 11 ■

İnvestisiya və cari xərclərə indikindən də artıq nəzarətin mümkün formaları - Prezident yeni müzakirə açdı...

■ səh. 11 ■

Azərbaycan yenə Ermənistanı məğlub duruma saldı - dünyanın Qarabağdakı "seçki" şousuna sərt təpkisi də səngimir...

■ səh. 9 ■

Koronavirus dövründə də regionun iqtisadi nəhəngi kimi özümüzü göstəririk - Gürcüstan Azərbaycan marlası ilə maska tikir...

■ səh. 4 ■

Nazir Prezidentin yanında Azərbaycan banklarının böyük qüsurunu açdı - Bakıda mənzil...

■ səh. 12 ■

Diaspor, kilsə və Rusiya faktoru Paşinyanın axırına çıxır

■ səh. 8 ■

Azərbaycanın korona ilə mübarizədə uğurunu təmin edən səbəblərdən biri - yas adı ilə yalandan SMS yazanlar da həbs edilir...

■ səh. 15 ■

Qlobal pandemiyanın gətirdiyi daha bir vazkeçilməz - təmassız ödənişlərə və nağdsız dövriyyəyə kəskin tələb...

■ səh. 12 ■




■ səh. 4 ■

## Azərbaycanın aqrar sektorunda «əlavə dəyər zəncirinin» gücləndirilməsi dövrü başlayır - Prezident istiqamət açdı



Prezident əslində «mənəvi haqsız» AŞPA məruzəçilərini Azərbaycan üzrə məruzəçilikdən imtinaya çağırdı - qurumun reaksiyası...

■ səh. 2 ■

Azərbaycan koronavirusla mübarizə dövründə «Evdə qal»dan «Evə gedirəm» mərhələsinə keçidə yaxınlaşır...

■ səh. 13 ■



İran-Azərbaycan münasibətlərinə növbəti erməni həmləsi - Xələfov zəng, İran təkzib etdi, daha nələr edilməlidir...

■ səh. 3 ■

■ səh. 3 ■

"Prezident sivil siyasi müxalifətin də həqiqi güc göstəricilərinin nədən ibarət olduğunu təhlil etdi"



■ səh. 7 ■

Azərbaycanın siyasi qüvvələrinin mütləq çoxluğu dövlətçilik mövqeyində - buna necə nail olundu...



■ səh. 15 ■

Azərbaycanın sosial dəstək paketində bunu da gördük - ödədiyi təhsil haqları geri qaytarılan tələbələr kimlərdir...



■ səh. 10 ■

Dövlət qeydiyyatı üçün 13 il gözləyən partiya sədri "Aparatdakı" köhnə kadrları günahlandırdı...



■ səh. 14 ■

Həyatını risqə atan həkimlərimizə Azərbaycan cəmiyyəti təəssübkeşlik edə bilirmi...



# Prezident əslində "mənəvi haqsız" AŞPA məruzəçilərini Azərbaycan üzrə məruzəçilikdən imtinaya çağırdı - qurumun reaksiyası...

**Prezident İlham Əliyev keçirdiyi son müşavirədə Avropa Şurası Parlament Assambleyasının və onun Azərbaycan üzrə həmməruzəçilərinin ünvanına əsaslı tənqidi fikirlər səsləndirib. Prezident bildirib ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü tanıyıb, Dağlıq Qarabağda keçirilən qondarma "seçkiləri" pisləsə də, AŞPA bunu etməyib.**

Eyni zamanda, dövlət başçısı bildirib ki, bu beynəlxalq təşkilatlar arasında bir təşkilatın adı yoxdur:

"Söhbət Avropa Şurasından, Avropa Şurası Parlament Assambleyasından gedir, hansı ki, "uzun illər, 20 il ərzində Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir". Avropa Şurası Parlament Assambleyası susub. Baxın, bütün təşkilatlar, o cümlədən Avropa təşkilatları bəyan edirlər ki, biz bu seçkiləri tanımırıq. Bunun birmənalı mənası odur ki, Dağlıq Qarabağ Azərbaycandır. Avropa Şurası Parlament Assambleyası niyə susur? Sualın cavabı aydındır. Ona görə ki, orada cəmləşən anti-Azərbaycan qüvvələr, ermənipərəst qüvvələr Azərbaycana düşmən gözü ilə baxırlar. Bizə qarşı o təşkilatdan gələn bütün iradların heç bir əhəmiyyəti yoxdur. Onların qəbul etdikləri qətnamələr, qərarlar mənim üçün kağız parçasından artıq deyil. O təşkilatın Azərbaycanla bağlı olan fikri məni maraqlandırmır və heç vaxt maraqlandırmayıb". Bundan əlavə, Prezident Azərbaycanla bağlı məruzəçilərlə bağlı narazılığını bildirib. "Burada balaca bir hadisə baş verən kimi ölkəmiz haqqında ağızdolusu yalan, böhtan uydururlar. Nə üçün susublar? Bundan sonra onlar Azərbaycan üzrə məruzəçi olmaq mənəvi haqqını itiriblər. Azərbaycan xalqı hər şeyi yaxşı görür. Görür ki, bunların çirkin bəyanatlarının arxasında heç də Azərbaycanda demokratiya, insan haqlarının qorunması məsələsi dayanmır. Azərbaycanı qaralamaq, şantaj etmək, nüfuzdan salmaq, beləliklə, ölkəmizin maraqlarına zərbə vurmaq bu qurumun məqsədidir".

Göründüyü kimi, ölkə başçısı faktiki olaraq, AŞPA-nın Azərbaycan üzrə həmməruzəçilərini missiyalarından əl çəkməyə çağırdı. Bununla bağlı qurumun mövqeyi və reaksiyası necə olmalıdır?



Avropa qurumları ilə yaxından əməkdaşlıq təcrübəsi olan, beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, Avropa Şurası Parlament Assambleyası 47 üzv dövlətin siyasi qrup nümayəndələrindən formalaşan bir təşkilatdır:"AŞPA-da müxtəlif mövzularda informativ xarakterli dinləmələrin təşkili, ölkələr üzrə bu və ya digər mövzularda hesabat hazırlayacaq həmməruzəçilərin təyin olunması və qurumun fəaliyyətinin səmərililiyinin artırılması üçün belə hesabatların təşkil olunması adi praktikadır. Ancaq bu dinləmələr, hesabatlar və ya həmməruzəçilərin fəaliyyətinin bu və ya digər ölkələrə qarşı təzyiq və təsir üsulları kimi istifadə olunması da sirr deyil. Məqsəd və məramnaməsində qanunun aliliyinə dəstək verməli olan AŞPA üçün üzv ölkələrə təzyiq və təsir vasitəsi kimi qurumdaxili nizamnamə və prosedurların pozulması ilə müşayiət edilən prosedurların həyata keçirilməsi adi haldır. Bunlara misal kimi AŞPA üzvü olan müstəqil dövlətlərin hüquq-məhkəmə sisteminə təzyiq cəhdləri, hüquqi proseslərə siyasi qərarlarla təsir cəhdləri və s. kimi hallardan danışa bilərik. Sırf Azərbaycanla bağlı bir neçə nümunə göstərmək istərdim. Məsələn, 2017-ci ildə AŞ-nın siyasi və icra qurumu olduğu Avropa Şurası Nazirlər Komitəsinin Azərbaycana qarşı addımlarında müstəqil beynəlxalq məhkəmə orqanı Avropa İnsan Haqları Məhkəməsinə təsir etmək cəhdinin şahidi olduq. Bu işin nonsensliyi o idi ki, Avropa İnsan Haqları Məhkəməsinə heç bir təsir mexanizminə malik olmayan, ancaq məhkəmənin qərarlarına nəzarət və monitorinq əsasında tövsiyə verə bilən Avropa Şurası Nazirlər Komitəsi siyasi qərarla Azərbaycanla bağlı bir məhkəmə qərarını Avropa İnsan Hüquqları Məhkəməsinə qaytarılması proseduru başlatdı. Məsələ ondadır ki, Avropa Şurası Nazirlər Komitəsinin bu proseduru başlatması üçün sadəcə hüquqi bazası mövcud deyildi və bu, Avropa Şurası Nazirlər Komitəsinin müstəqil beynəlxalq məhkəmə institutu olan Avropa İnsan Haqları Məhkəməsinə birbaşa təsir cəhdi idi. Digər bir nümunədə isə, məsələn, 2018-ci ildə AŞPA Müstəqil İstintaq Qrupu adlı surroqat bir təsisat yaratdı bu təsisat 2017-ci ildə qəbul edilən daxili prosedur və etik qaydalara dəyişikliyi nəzərdə tutan "Parlament Assambleyasında üzvlərin məsuliyyət prinsipinin tanınması və həyata keçirilməsi" sənədinin əsasında AŞPA üzvləri barədə Korrupsiya İttihamları üzrə hesabatın təqdim etdi. Məsələnin qərəzliliyi sonrakı addımların absurdluğunda özünü daha aydın göstərdi, 2017-ci ildə qəbul olunmuş bu sənədin əsasında 2010-cu və hətta daha öncəki illərdə fəaliyyət müddəti bitmiş deputatlara qarşı sanksiyalar tətbiq olundu. Digər tərəfdən, son illər qlobal müstəvidə "demokratiya", "insan haqları" mövzusu ətrafında yaradılmış süni ajiotajın dövlətlərə və hökumətlərə kənar təsir vasitəsi kimi geniş istifadəsi təcrübəsi mövcuddur və xüsusilə enerji, iqtisadi və təhlükəsizlik sahələrində strateji coğrafi mövqelərə malik, separatizm və işğaldan əziyyət çəkən ölkələrə qarşı rəqib cəbhədən geniş istifadə olunmaqdadır. Bir beynəlxalq təşkilat kimi beynəlxalq hüququn təmin olunmasında vasitəçi olmalı olan, əsas məramı və məqsədi üzv ölkələr arasında qanunun aliliyinin təmin olunmasında vasitəçi olmalı olan, aid olduğu coəğrafiyada stabillik, sülh və təhlükəsizliyin inkşafına səbəb ola biləcək fəaliyyət həyata keçirməli olan AŞPA Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində beynəlxalq və Azərbaycan hüquqlarına zidd "seçki" keçirilməsini görməzdən gəldi.

Azərbaycan üzrə insan haqları həmməruzəçiləri isə Azərbaycanın işğal olunmuş ərazilərində təcavüz, etnik təmizləmə və irqi ayrıseçkiliyə məruz qalan bir milyona yaxın əhalinin fundamental hüquqlarının, seçki hüququnun pozulmasını sanki görmürlər. Bu qədər qərəzli olan AŞPA həmməruzəçiləri, nəinki insan haqlarının müdafiəsi sahəsində hörmətdən düşürlər, həmçinin AŞPA-nın bir beynəlxalq qurum kimi legitimliyinə şübhə salmış olurlar. Qurum bu vəziyyətlə bağlı ölkə başçısının haqlı iradlarına mövqeyini bildirməli və Azərbaycanla gələcək əməkdaşlığını normal müstəvi üzərində qurmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Aydın Quliyev Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərliyə atasının vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Müstəqillik tariximizin ilk video dövlət müşavirəsi bir sıra xarakterik əlamətlərlə fərqləndirilə bilər. Ölkənin daxili və xarici siyasəti, pandemiya ilə mübarizə, davamlı islahatlar, iqtisadi sabitlik, Qarabağ problemi, bəzi beynəlxalq dairələrin Azərbaycana qərəzli yanaşmalarını inadla davam etdirmələri və s. ilə bağlı düşündürücü mesajlar sözügedən konfransa geniş marağı təmin edən amillərdi.**

# Aydın Quliyev: "Prezident sivil siyasi müxalifətin də həqiqi güc göstəricilərinin nədən ibarət olduğunu təhlil etdi"




Bunu baki-xeber.com-a açıqlamasında eyniadlı saytın və qəzetin baş redaktoru, politoloq Aydın Quliyev deyib. Onun sözlərinə görə, Azərbaycanın yeni daxil olduğu daxili siyasi konfiqurasiyanın əsas əlamətlərinin təqdim olunması baxımından videokonfransın rolu barədə ayrıca danışmağa ehtiyac yaranır:

"Prezident bu mərhələnin bir neçə əsas xüsusiyyətini göstərdi. Siyasi qüvvələrin mütləq əksəriyyətinin dövlətçilk mövqeyində dayandığını bildirən Prezident, əslində cəmiyyətimizdə real siyasi qüvvələr nisbətinin aydın mənzərəsini çəkdi. Bu mənzərə onu ifadə edir ki, bəzi müxalif dairələrin "böyük-böyük"iddialarına baxmayaraq, Azərbaycanda siyasi qüvvələr nisbəti tam şəkildə hakimiyyətin tərəfindədir".

A.Quliyev bildirdi ki, Prezident yeni konfiqurasiya mərhələsində müxalifətin fərqli perspektivlərə malik müxtəlif qruplaşmalarının da sərhədlərini aydın göstərdi:"Təbii ki, yeni siyasi konfiqurasiyada heç də bütün müxalif sayılan qrupların yeri yoxdur və olmayacaq. Prezident aydın bildirdi ki, yalnız dövlətçilik mövqeyi olan, siyasi dialoqa gedən, ifrat ittihamçılıqdan uzaq, dövlət idarəçiliyində qanuni üsullarla birbaşa və dolayı iştiraka qadır müxalif qüvvələr yeni konfiqurasiyada təmsil oluna biləcəklər".

Politoloqun sözlərinə görə, illərdən bəri ardıcıl boykot bəyanatları verən, siyasi proseslərdən özünü kənarda qoyan, siyasi proseslərdə iştirakın ancaq küçə-müydan aksiyaları formasını məqbul sayanların, təbii ki, yeni konfiqurasiyada təmsilçilik şansları olmayacaq:"Dövlətin bu günlərdə koronavirusla ağır mübarizəsinin özünü də qaralamaq istəyən opponentlərin siyasi müxalifət adı altında yeni konfiqurasiyaya düşmək şansları necə ola bilər ki?! Normal məntiqin hökmünə görə, bu ağır günlərdə özlərini hətta barışmaz radikal sayanlar da müxalifətçilik fəaliyyətinə ara verərək, dövlətin ümumi bəla ilə mübarizə tədbirlərinə dəstək verməli, ya heç olmasa maneçilik etməməli idilər. Əvəzində ifrat ittihamçılıq, hətta pandemiya əleyhinə dövlət tədbirlərinin özünün də qaralanmasına qədər dərinləşdirildi. Koronavirusla mübarizə Fonduna hətta "1 manat" belə kömək etməyi özünə borc bilməyən müxalif qruplaşmanın Azərbaycanın yeni siyasi konfiqurasiyasında necə iştirak etmək şansı qala bilər?!"

A.Quliyevin sözlərinə görə, hər bir dövlətin tarixində elə məqamlar olur ki, o məqamda istənilən siyasi qüvvə düşmən deyil, ya tərəfdaş, ya da sağlam və qərəzsiz opponent olmağı bacarmalıdır:"Yoluxan və ölənlərin statistikası üstündə siyasət qurmaq taktikasını xalq da düşmənçilik kimi qəbul edir və belə taktika ilə gedənlər, nəinki yeni siyasi düzəndə təmsil olunmaq şansını itirir, ümumiyyətlə sivil siyasi sistemin elementi kimi yox olub gedir.

Prezident sivil siyasi müxalifətin həqiqi güc göstəricilərinin də nələrdən ibarət olduğunu təhlil etdi. Göstərdi ki, müxalifətin güc anlayışı heç də qanunsuz aksiyalarda, seçki boykotlarında, hər şeyi pisləməkdə, hər şeyi qara rəngdə görməkdə, başqasının uğurlarını danmaqda deyil. Müxalifətin gücü odur ki, hakimiyyətin səhv və ya görmədiklərini sağlam şəkildə görsün, proqram və təlimatlar, qrafiklər və qanun layihələri təqdim etsin, dövlət idarəçiliyində iştirak üçün sağlam kadrlar yetişdirsin, dövlətçilik məsələlərində isə açıq mövqe göstərməyi özünə yersiz şəkildə eyib bilməsin. Beləliklə, yeni siyasi düzən şəraitində perspektivdə iki taleyi olan müxalifət görmək mümkündür:özünü xalqdan və siyasi sistemdən kənarda qoyaraq tam iflas olmaq yolunu tutmuş radikal müxalifət və güclü sivil qüvvəyə çevrilmək şansına malik müxalifət. Kimin yolunun uzun olacağının artıq hər qüvvənin özündən asılı olduğu dövr başlayır. Milli Məclisdə və ondan kənarda ölkənin sivil müxalfətinə iddialı partiyaların özləri üçün də yeni dövr başlayır. Bu dövr önlar üçün sınaqdır. Onlara Azərbaycanın sivil və hakimiyyətə legitim təsirli güc parametrlərinə malik müxalifəti olduqlarını sübut etmək şansı verilib. Bu sınaqdan çıxa bilməyən konstruktiv partiyalar da radikallar kimi siyasi sistemdən kənara qoyula bilər".

***Baki-xeber.com***

**Bu günlərdə sosial şəbəkələrin erməni seqmentində Azərbaycanın işğal altındakı ərazilərinə yanacaq və ərzaq daşıyan İran TIR-larının görüntüsü yayıldı. Bu görüntüləri Dağlıq Qarabağda yaşayan ermənilərdən biri paylaşmışdı və bu, Azərbaycan ictimaiyyətində haqlı olaraq hiddətlə qarşılandı.**

# İran-Azərbaycan münasibətlərinə növbəti erməni həmləsi - Xələfov zəng, İran təkzib etdi, daha nələr edilməlidir...

## *Elşən Həsənov: "Azərbaycanla arada olan etimad mühitini daha da möhkəmləndirmək üçün İran Ermənistanı bu məsələyə görə sərt tənqid etməlidir"*



Qarabağda həmin müxalif bloqerlərin İran benzindaşıyan maşınları və yük maşınları karvanının Xankəndi küçələrində hərəkətini çəkib yaymasının məqsədi nə olub? Qarabağda koronavirus pandemiyasının yayılması təhlükəsi qarşısında elementar qorxu hissi. Axı İran koronavirusun tüğyan etdiyi ölkələrdən biridir. Və birdən-birə yüzlərlə iranlı sürücü-potensial koronavirus daşıyıcıları separatçı ərazinin "paytaxtında" peyda olur. İranın Bakıdakı səfirliyi bu görüntüləri təkzib etdi, onları qurama adlandırıb bəyan edib ki, görüntüləri "Tehran-Bakı əlaqələrinin inkişafını istəməyən qüvvələr" yayıb. Məqsəd isə iki qonşu ölkə arasında mövcud olan yaxşı qonşuluq münasibətlərini korlamaqdır. Bunun ardınca Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun İran xarici işlər nazirinin müavini Abbas Əraqçı və səfir Cavad Cahangirzadə ilə telefon danışıqları olub. Telefon danışıqlarında İran yük maşınlarının Qarabağa yük daşıması ilə bağlı narazılıq da çatdırılıb. İran tərəfi isə bu məlumatların həqiqətə uyğun olmadığını bildirib.

İranın bu məsələni rəsmən təkzib etməsi çox yaxşıdır. Ancaq ortada etimad mühitinin tam yaranması üçün İran belə hallarla bağlı Ermənistana hansı formada xəbərdarlıq etməlidir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan İranla hər zaman yaxın qonşuluq münasibətləri qurub:"İran maşınlarının Qarabağdakı görüntülərinin yayılması ərəfəsində, aprelin 7-də isə Azərbaycan ağır günlər keçirən qonşusuna mənəvi dəstək verirdi. Həmin gün Heydər Əliyev Mərkəzinin binası üzərində İran İslam Respublikasının bayrağı videoproyeksiya olundu. Rəsmi Bakı bununla da COVID-19 epidemiyasından əziyyət çəkən İran dövlətinə və onun xalqına dəstəyini, hörmət və ehtiramını ifadə etdi. Ermənistan isə koronavirus səbəbindən İranla sərhədini birinci bağlayan ölkə oldu. Biz İranın Ermənistanla yaxın münasibət qurduğunu bilirik. Bundan xoşhal olmasaq da, iki ölkənin işinə qarışmırıq. Ancaq yayılan videoda söhbət İrandan qondarma rejimin nəzarəti altında olan ərazimizə keçən yardım maşınlarından gedirdi. Bu bizə həm beynəlxalq hüququn pozulması, həm də müsəlman həmrəyliyi baxımından pis təsir edir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Dağlıq Qarabağ separatçılarına istənilən yardım Azərbaycanın ərazi bütövlüyünə və dövlətçiliyinə qəsddir. Yaxşı oldu ki, İran bu məlumatın həqiqətə uyğun olmadığını rəsmən təkzib etdi. Həmin bəyanatda bildirildi ki, bunu edənlər İranla Azərbaycanın dostluğunu istəməyənlərdi.

Məlum video ermənilər tərəfindən çəkildiyindən və onların sosial şəbəkələrə aid seqmentində paylaşıldığından İranın xəbərdarlığı və narazılığı daha korrekt və ünvanlı olmalıdır. Ermənistana sonuncu dəfə xəbərdarlıq etməlidir ki, belə avantüralara əl atmasın. Ermənistanın İrandan asılılığı çox olduğundan, Tehranın tövsiyəsinə tam əməl etməkdən başqa çarəsi qalmaz. Azərbaycanla arada olan etimad mühitini daha da möhkəmləndirmək üçün İran Ermənistanı bu məsələyə görə sərt tənqid etməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**"Bu il kənd təsərrüfatı sahəsində çalışan sahibkarlara Sahibkarlığın İnkişafı Fondundan kreditlərin ayrılması nəzərdə tutulur. Xüsusilə hesab edirəm ki, indiki şəraitdə kənd təsərrüfatı emalı sahəsinə daha çox diqqət yetirilməlidir.**

# Azərbaycanın aqrar sektorunda "əlavə dəyər zəncirinin" gücləndirilməsi dövrü başlayır - Prezident istiqamət açdı

## Nicat Nəsirli: *"Məhsulların ilkin və dərin emalı təşkil olunmalıdır"*



Çünki biz əlavə dəyər zənciri yaratmalıyıq və çalışmalıyıq ki, həm daxili bazara, həm xarici bazarlara daha çox hazır məhsul təqdim edək".

Bu sözləri Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilmiş müşavirədə söyləyib.

Dövlət başçısı onu da qeyd edib ki, bu, yeni iş yerlərinin yaradılmasına da gətirib çıxaracaq: "Əlbəttə ki, kiçik sahibkarlar da yaddan çıxmamalıdır".

O da məlumdur ki, Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunda böyük çəkiyə malik olan sahələrdən biri də kənd təsərrüfatıdır. Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar ilbəil artır. Yeni texnikalar alınır, dövlət tərəfindən subsidiyalar ayrılır, aqro xidmət sahələri yaradılır, güzəştli şərtlərlə gübrə, yanacaq verilir. Sahibkarlara güzəştli şərtlərlə verilən kreditlər hesabına yeni aqrar istehsal sahələri yaranır. Bunun nəticəsində ölkəmizdə aqrar sektorda məhsul istehsalının artması yeni emal müəssisələrinin yaradılması tələbatını ortaya qoyur. Emal sahəsini inkişaf etdirsək, bu həm gəlirləri artıracaq, həm də məşğulluğun təmin olunmasına müsbət təsir edəcək.

Maraqlıdır, indiki şəraitdə kənd təsərrüfatı sahəsində emal sektorunun inkişafı ilə bağlı hansı vacib işlər görülməlidir?

Məsələyə münasibət bildirən aqrar sahə üzrə ekspert Nicat Nəsirlinin sözlərinə görə, bununla bağlı bir sıra işlər görülməlidir: "Burada söhbət sənaye komplekslərinin yaradılmasından gedir. Bu gün pambıqçılığın, meyvəçiliyin sənaye tərəfi var. Ancaq bu sahə daha da inkişaf etdirilməlidir. Məhsulların ilkin və dərin emalı təşkil olunmalıdır. Koronavirusla bağlı maska zavodu tikildi, amma bunun üçün xammal olmadı. Lazım olan xammal Türkiyədən gətirildi. Ona görə də ölkədə pambıqçılıq inkişaf edirsə, onun emalı da inkişaf etməlidir. Təkcə məhsulu xammal şəklində satmaq sərfəli deyil. Bundan çoxsaylı məhsul əldə etmək mümkündür. Bu zaman nəinki yerli tələbatı daxili istehsal hesabına ödəmək olar, hətta hazır məhsulu xaricə ixrac da edə bilərik. Bu gün inkişaf etmiş ölkələr məhsul emalına xüsusi önəm verirlər. Bununla belə, meyvə-tərəvəz emalını dərinləşdirmək olar. Bir sıra hallarda mövsüm vaxtı fermerlər məhsulu sata bilmir, emal sənayesi qurulsa, belə problem olmayacaq. Üstəlik, əlavə dəyər zənciri yaranacaq. Qeyri-mövsümlərdə tələbatı yerli istehsal hesabına ödəmək mümkün olacaq. Ona görə də müşavirədə Prezident çox vacib məsələyə toxundu.

*"Bir sıra hallarda mövsüm vaxtı fermerlər məhsulu sata bilmir, emal sənayesi qurulsa, belə problem olmayacaq"*

**Emal sənayesi kənd təsərrüfatının axsayan tərəfidir. Hesab edirəm ki, burada torpaqdan süfrəyə bir zəncir halqəsi qurulmalıdır. Burda sənaye qurulmalıdır və bununla yanaşı, insanların istehlak mədəniyyəti olmalıdır. Məsələ ondadır ki, bizim xalqımız konserv məhsullarına o qədər də önəm vermir. Ona görə də bunun bazarı olmalıdır ki, emal sənayesi inkişaf etsin. Bazar yoxdursa, o zaman istehsal olunan məhsul xarici rəqabətə davam gətirməyəcək. Bu sahədə kompleks işlər görülməlidir".**

***Vidadi ORDAHALLI***

**Bölgədə öz iqtisadi gücü və inkişafı ilə lider olan Azərbaycan dövləti mütəmadi olaraq qonşu dövlətlərə gərəyi olan dəstəyi göstərə bilir. Pandemiya dövründə də Azərbaycan bu missiyasına sadiq qalmaqdadır.**

# Koronavirus dövründə də regionun iqtisadi nəhəngi kimi özümüzü göstəririk - Gürcüstan Azərbaycan marlası ilə maska tikir...

## Eyyub Hüseynov: *"Pandemiya dövründə Azərbaycanda istehsal edilən tənzifə Gürcüstanda tələbatın olması və bu ölkədə ilk partiya qoruyucu maskaların..."*




Bu gün koronavirus pandemiyasından böyük əziyyət çəkən, fövqəladə vəziyyət rejimində olan Gürcüstana hazırda ən böyük dəstək göstərən ölkə Azərbaycandır. Bunu son günlər Gürcüstan rəsmiləri də dilə gətirir və dəstəyə görə Azərbaycan dövlətinə təşəkkür edirlər.

Azərbaycan iqtisadiyyatının inkişafı nəticəsində ölkəmizdə sənaye də inkişaf edib. Artıq Azərbaycan müxtəlif məhsullar istehsal edərək onu həm yerli, həm də qonşu ölkələrin bazarlarına çıxarmağa müvəffəq olub. Azərbaycanda istehsal olunan tənzif yüksək keyfiyyətinə görə maska istehsalında istifadə edilir.

Artıq Gürcüstanda tibbi maskalar Azərbaycandan alınan tənzifdən istehsal olunur. Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri Natia Turnava bildirib ki, Azərbaycanda bir müəssisə xüsusi olaraq Gürcüstan üçün tənzif istehsal edir.

"Gürcüstanda tibbi maska istehsalı üçün lazım olan xammalın alınmasında göstərdiyi dəstəyə görə Azərbaycan hökumətinə təşəkkür edirəm" - deyə bildirən nazir Azərbaycanın Gürcüstanın strateji tərəfdaşı olduğunu deyib. "Məhz Azərbaycandan alınan tənziflə biz Gürcüstanda tibbi maskaların ilk partiyasını istehsal etdik".

O vurğulayıb ki, Gürcüstanın tənziflə təmin olunmasında bu ölkənin Azərbaycandakı səfirliyi və əməkdaşları böyük səylər göstərib. Həmçinin, Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyindən bildirilib ki, hazırda ölkədə 8 müəssisədə tibbi maska tikilir.

"Azad İstehlakçılar" Birliyinin rəhbəri Eyyub Hüseynov bizimlə söhbətində bildirdi ki, Azərbaycanın regionda iqtisadi cəhətdən güclü dövlət olmasının qonşu ölkələrə də böyük faydası dəyir. E.Hüseynov vurğuladı ki, Azərbaycan həmişə qonşu ölkələrə dəstək göstərir. "Azərbaycanın istehsal etdiyi məhsullara bölgədə tələbatın artması çox müsbət haldır. Bu həm də Azərbaycan istehsalçıları və Gürcüstan istehlakçıları üçün çox əhəmiyyətli məsələdir. Pandemiya dövründə Azərbaycanda istehsal edilən tənzifə Gürcüstanda tələbatın olması və bu ölkədə ilk partiya qoruyucu maskaların Azərbaycan tənzifindən istehsal edilməsi çox müsbət göstəricidir. Bu gün Azərbaycan bölgədə öz iqtisadi gücü ilə liderdir və o, Gürcüstana da daimi dəstək göstərir".

*"Azərbaycan qonşu ölkələrə bütün məsələlərdə dəstək göstərir"*

Azərbaycanın bölgədə daim balansı qoruduğunu deyən E.Hüseynovun sözlərinə görə, dar gündə dövlətimiz ehtiyacı olan ölkələrin köməyinə yetir.

Bu gün bölgəmizdə pandemiya ilə əlaqədar bu virusun qarşısının alınmasında qonşu dövlətlərin də həmrəylik göstərməsi vacibdir. "Azərbaycan qonşu ölkələrə bütün məsələlərdə dəstək göstərir, eyni zamanda da bu məsələdə. Cənab Prezidentin göstərişi ilə açılan yeni maska fabrikinin artıq məhsulları bazara çıxıb. Hesab edirəm ki, bu məhsullar tezliklə başqa ölkələrə də ixrac ediləcək. Bununla Azərbaycan hökuməti də, Azərbaycan istehsalçıları da fəxr edə bilərlər" - deyə E.Hüseynov vurğuladı.

***İradə SARIYEVA***

# Əflatun Amaşov: "Media nə arxayınlıq yaratmalı, nə də ölüm təhlükəsini çılpaqlığı ilə ortaya qoymalıdır"

**Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov APA-nın pandemiya dövründə jurnalistlərin peşə etikası qaydalarına necə riayət etməsi və daşıdığı missiyanın məsuliyyətini nə dərəcədə hiss etməsi ilə bağlı sualları cavablandırıb. Müsahibəni təqdim edirik:**

**- Əflatun müəllim, nəinki ölkəmizin, bütövlükdə dünyanın başlıca mövzusu koronavirus pandemiyasıdır. Bu durumda mətbuatın üzərinə də böyük missiya düşür. Sizcə, Azərbaycan mediası üzərinə düşən vəzifənin öhdəsindən gələ bilirmi?**

- Ümumən mediamız üzərinə düşən missiyanı yerinə yetirir. Kütləvi informasiya vasitələrimiz Azərbaycan dövlətinin koronavirus pandemiyasının zərərlərindən sığortalanmaq, itkiləri minimuma endirmək siyasətinin reallaşması üçün böyük əzmlə çalışır. Biz bunu görürük. Azərbaycan dövləti, şəxsən cənab Prezident İlham Əliyev koronavirus təhlükəsinin aktuallaşdığı ilk gündən məsələyə olduqca həssas yanaşdı. Dövlət başçımızın, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəfələrlə xalqa müraciətlərini gördük. Bu müraciətlər infeksiyanın yayılmasının qarşısını almaq, mənfi təsirlərini neytrallaşdırmaq üçün həm qanunçuluğun vacibliyini vurğuladı, həm də dövlətin vətəndaşlarına qayğısını göstərdi, çətin durumda birlik və həmrəyliyə böyük çağırış anlamı daşıdı. İdeoloji nöqteyi-nəzərdən bu addımlar cəmiyyətə son dərəcə böyük təsir göstərdi. İnsanlara ruh yüksəkliyi, dözüm, iradə aşıladı. Təbii ki, dövlətin koronavirusun vurduğu ziyanların aradan qaldırılması istiqamətindəki sosial xətti də önəmlidir. Mövcud istiqamətdə işlər görülüb, konkret nəticələr var və şübhəsiz ki, bununla bağlı fəaliyyət davam etdiriləcək. Azərbaycan Prezidenti videokonfrans şəklində keçirdiyi müşavirədə kifayət qədər vacib məqamlara toxundu.

Azərbaycan mediası başlıca olaraq dövlət siyasətinin təbliğatçısı qismində çıxış etdi. Onun yaradıcılıq dəst-xətti əsasən dövlətin gördüyü və görməli olduğu işlərin istər dinamikasına, istərsə də daxili mahiyyətinə dəstək baxımından seçildi. Yəni media, bir növ, əskiklikləri tamamlamaqla vətəndaş rifahının yüksəlməsinə yönələn siyasətə töhfəsini verdi. Fürsətdən istifadə edib, çətin günlərdə işinə peşəkar yanaşan jurnalistlərimizin hər birinə dərin təşəkkürümü bildirirəm. Fərqləndirmək istəmirəm, belə vətənpərvərlik mövqeyi ortaya qoyan həmkarlarımız həm telekanallarda, həm radiolarda, həm qəzetlər və jurnallarda, həm də elektron media resurlarında var. Cəmiyyətin müxtəlif təbəqələri hər gün evlərində qalaraq onların zəhmətinin məhsulu olan maraqlı materialları izləyir.

**- Rəhbərlik etdiyiniz qurum koronavirus təhlükəsinin yarandığı ilk vaxtdan bir neçə dəfə kütləvi informasiya vasitələrinə müraciət ünvanladı, tövsiyələrlə çıxış etdi. İstərdik ki, bu tədbirləri zəruri edən səbəblərdən danışaq.**

- Pandemiya şəraiti ekstremaldır. Biz indiyədək mediamızın ekstremal durumlarda çalışdığını görmüşük. Amma belə bir təhlükə olmamışdı. Müasir dünyamızda da bu cür durum yaşanmamışdı. Təsəvvür edin, təyyarə qəzası baş verir, 200 nəfər həyatını itirir, hansısa ölkədə matəm elan olunur, dövlət başçıları bir-birilərinə başsağlığı teleqramları ünvanlayırlar. İndi heç kəs bunu düşünə bilmir. Hər gün minlərlə insan dünyasını dəyişir. Sanki ölüm adiləşir. Hətta ölüm saylarının, tutalım 600-dən 300-ə enməsi sevinclə qarşılanır. Dünya belə bir vəziyyəti yaşamışdımı? Xeyr.



Təbii ki, bu vəziyyət medianın fəaliyyətinə də ciddi təsir göstərməkdədir. Bizim mövcud istiqamətdə müşahidələrimiz oldu. Habelə xarici media orqanlarının fəaliyyətini də izlədik. Tövsiyələrimizi buna uyğun olaraq formalaşdırdıq. Bilirsiniz, əslində xüsusi bir tələb də yoxdur. Sadəcə, pandemiya şəraitinin düzgün öyrənilməsi və ona uyğun fəaliyyət göstərmək lazımdır. Peşə prinsiplərinə hər zamankından daha çox sadiqlik, prinsipiallıq nümayişinə ehtiyac var. Jurnalist düşünməlidir ki, ölkə sanki düşmənlə mübarizə aparır. Bu düşmən həm can alır, həm depressiyaya salıb ümidsizlik yaradır. Belə bir şəraitdə cəmiyyətin psixoloji durumu necə olacaq? İnsanlar vəziyyətdən necə çıxacaq? Media peşəkar yanaşırsa, bunları düşünməlidir. Ölkənin sərvəti onun insanıdır. İnsan bədbin olmamalıdır, məsuliyyətli davranmalıdır. Biz mediaya bu xəttin götürülməsini tövsiyə etmişik. Təbii ki, cəmiyyət təhlükənin miqyasını da anlamalıdır. Heç kəs deyə bilməz ki, koronavirus infeksiyası ona yoluxmaz. Britaniyanın Baş naziri xəstəliyə tutulursa, reanimasiyaya düşürsə, yaxud bir sıra məhşurlarda koronavirus aşkarlanırsa, demək ki, heç kəs sığortalanmayıb.

Mediamız belə məqamları doğru olaraq diqqətə çatdırdı. Ancaq bəzən müəyyən media materiallarının sırf ölüm məsələsinə kökləndiyini, ölümün qabardıldığını, dilə gətirildiyini gördük. Təbii ki, məsələyə həssas yanaşmaq lazımdır. Media nə arxayınlıq yaratmalıdır, nə də ölüm təhlükəsini çılpaqlığı ilə ortaya qoymalıdır. Orta xətt mütləq var və bu hər bir jurnalistin fərdi yanaşmasından, dünyagörüşündən, peşəkarlıq səviyyəsindən asılıdır.

Mətbuat Şurasının tövsiyələri peşənin tələblərinə həssas yanaşmaq siqnalı idi. Hesab edirəm ki, bu lazım idi. Bilirsiniz, söhbət heç də ondan getmir ki, kimlərsə öz işini bilmir. Peşəkarlarımız kifayət qədərdir. Sadəcə bəzən informasiya axını, vəziyyətin gərginliyi jurnalisti də çaşdıra bilir. Biz tövsiyələrimizi bunu nəzərə alaraq ünvanladıq.

**- Amma razılaşaq ki, işlərini bilməyənlər az deyil...**

- Bəli, elədir. Hətta onu da demək olmaz ki, ölkənin tanınan, ictimai fikrə təsir göstərən kütləvi informasiya vasitələrində çalışanların hamısı işlərinin bilicileridir. Amma bu tip media orqanlarında bəlli sistem var. İnformasiya bir neçə nəfər tərəfindən oxunur və ondan sonra cəmiyyətə çatdırılır. Beləcə, yanlışığa yol vermək faizi aşağı düşür, əksər hallarda olmur.

Əslində koronavirus təhlükəsi həqiqi media orqanları, əsl peşəkarlar üçün iki aydın fəaliyyət istiqaməti ortaya qoydu. Birincisi, rəsmi məlumatlara istinaddır. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın materiallarına istinaddan söhbət gedir. Eyni zamanda Operativ Qərargahın tövsiyə və tələblərinin yerlərdə icrasına nəzarətin nə dərəcədə təbliğ olunması vurğulanmalıdır. İkinci məqam medianın dezinformasiyalara, xüsusən sosial şəbəkələr vasitəsilə yayılmış yalan bilgilərə zamanında reaksiya verməsidir. Bu baxımdan jurnalistlər müvafiq dövlət qurumlarına kömək göstərdilər. Özlərinin rəsmi orqanlarla əlaqəli şəkildə hazırladıqları çevik reaksiyaları ilə cəmiyyətin yanlış istiqamətlənməsinin qarşısını aldılar.

Əlbəttə, vizual görüntü daşıyıcıları olduqlarından, əhalinin böyük qismi evdə qaldığından telekanalların izlənmə göstəriciləri artdı və onların daha çevik fəaliyyətlərinə ehtiyac aktuallaşdı. Burada vurğulanmalı məqam telekanalların işlərini məhz müəyyən saytlarda, sosial şəbəkə profillərində doğru olaraq qaldırılmış məsələlərə reaksiya şəklində qurmaları oldu. Biz reaksiyanı dezinformasiyalara münasibətdə də gördük. Bu mənada telekanallarla, radiolarla internet medianın, sosial şəbəkələrin vahid məqsəd üçün bir növ işbirliyini gördük. Son dərəcə vacib məqamlardan biri budur. Eyni zamanda deməliyik ki, müvafiq dövlət qurumları kifayət qədər operativ işlədilər. Onlarla medianın müştərək fəaliyyətinin örnək nümunələri diqqətdən yayınmadı.

Əlbəttə, yenə deyim, qeyri-peşəkar yanaşmalar indinin özündə də var. Belə hallar yalnız mediada deyil. Bunu da müəyyən mənada anlayışla qarşılamalıyıq. Çünki qlobal pandemiya şəraiti bizlər üçün yenilikdir. Mən Operativ Qərargahın fəaliyyətini, xüsusən media ilə müştərək fəaliyyətini çox bəyənirəm. Ancaq onu da nəzərə alaq ki, bu cür təşkilatlanma ölkəmiz üçün yenilikdir.

Digər tərəfdən, dünyanın media strukturları, ümumən media ictimaiyyəti daha çox koronavirusla bağlı feyk paylaşımlardan narahatdır. Əlbəttə, bu paylaşımlar bir çox hallarda siyasi məqsədə hesablanır. Qərb və Rusiya mediasının qarşılıqlı ittihamları var. Feyk materiallara qarşı hüquqi məsuliyyət tədbirləri də həyata keçirilir.

**- Məlumdur ki, Operativ Qərargah xüsusi karantin rejimində fəaliyyətinə icazə verilən istiqamətlər sırasına kütləvi informasiya vasitələrini də daxil edib. Ancaq bu şəraitdə jurnalist vəsiqəsi satanlar da oldu, başqa sui-istifadələrə yol verənlər də. Bununla bağlı hansı işlər görülür?**

- Jurnalistikadan sui-istifadə halları ilə bağlı bizə müəyyən siqnallar daxil olur. Əlbəttə, kimlərsə xüsusi karantin rejiminin tələblərini saxtakarlıqla pozacaqsa, birmənalı qaydada məsuliyyətə cəlb olunmalıdırlar. Hər hansı güzəştdən söhbət gedə bilməz. Azərbaycan Mətbuat Şurası məsələni diqqətdə saxlayır.

Bu problem hər zaman olub. Şura belə hallara qarşı səlahiyyətləri çərçivəsində mübarizə aparıb. Bir çox hallarda hüquq-mühafizə orqanlarına müraciətlər ünvanlamışıq. Əslində bu kimi məsələlərə kompleks yanaşmaq zərurəti var. Müəyyən sistem yaradılmalıdır. Prinsip etibarilə bu sistem özündə çoxşaxəli fəaliyyəti birləşdirməlidir. Geniş danışmaq istəməzdim, Mətbuat Şurasının bununla bağlı konkret təklifləri var.

**- Mətbuat Şurası Operativ Qərargaha media orqanlarının və jurnalistlərin siyahısını təqdim edib. İstərdik bilək ki, bu siyahı hansı prinsip üzrə tətbiq edilir?**

- Əslində burada prinsip heç də siyahıda deyil. Məsələnin mahiyyəti budur ki, Operativ Qərargah medianı fəaliyyətinə icazə verilən sahə kimi təsdiqləyib. Bir çox jurnalistlərimiz fəaliyyət sərbəstliyinə malikdirlər. Ancaq qeyd etdiyiniz kimi, spekulyasiyalar oldu. Buna görə media üçün əmək müqaviləsi bildirişi tələb olundu. Amma bu, özlüyündə bir sıra problemləri doğurdu. Bilirsiniz ki, frilans kimi çalışan jurnalistlərimiz var. Onlar sadələşdirilmiş vergi ödəyicisidirlər. Ayrı-ayrı media orqanları üçün çalışırlar. Hətta bəziləri konkret vəzifə bölgüsü əsasında fəaliyyətdədir. Ancaq onların əməyinin ödənişi əmək müqaviləsinə deyil, xidməti müqaviləyə əsasən gerçəkləşdirilir. Təbii, belələrinin adları müvafiq dövlət qurumunun sistemində çıxa bilməz. Yaxud, nə əmək müqaviləsi, nə də xidməti müqavilə olmadan çalışanlar var. Biz bilirik ki, bu adamlar faktiki olaraq jurnalist fəaliyyəti göstərirlər. Bu başqa söhbətin mövzusudur ki, niyə əməklərinin ödənişi rəsmiləşmir. Ümumən medianın iqtisadi durumu belə rəsmiləşməyə çətinlik yaradır. Problem həm ənənəvi media, həm onlayn media, həm də telekanallar və radiolar üçün aktualdır. Düşünürəm ki, məsələnin ciddi müzakirəsinə, konkret qərarların qəbuluna ehtiyac var ki, ümumən media sahəsi şəffaflaşsın.

İndiki durumda əsas məsələ qeyd etdiyim kateqoriyadan olan jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsidir. Bununla bağlı onlar bizə müraciət edirlər. Biz də həmin şəxslərin siyahısını Operativ Qərargaha göndəririk.

Yeri gəlmişkən, bir məqamı vurğulamaq istərdim. Ümumən xüsusi karantin rejimi hər kəsin fəaliyyətini məhdudlaşdırır. Bəli, medianın fəaliyyətinə icazə verilir. Biz də istəyirik ki, icazə həqiqi media fəaliyyətini həyata keçirən hər bir subyekti əhatə etsin. Ancaq jurnalistlər də məsuliyyətli olmalıdır. Onlar anlamalıdırlar ki, verilən icazə jurnalistikanın cəmiyyət üçün vacib peşə olmasındandır. Kimsə bu icazəni tam sərbəstlik kimi qəbul etməməlidir. Ehtiyac yoxdursa, evdən çıxılmamalıdır. Jurnalistlər və redaksiya rəhbərləri həmçinin bilməlidirlər ki, xüsusi zərurət yoxdursa, işçi iş yerinə gəlməməlidir. İşini evdən idarə etməlidirlər.

Yenə də deyim ki, koronavirus təhlükəsi ümumilikdə dünya üçün yenilikdir. Bununla bağlı medianın peşəkarlıq standartlarına da baxışlar dəyişir. Biz ölkəmizin media orqanlarını Beynəlxalq Jurnalistlər Federasiyasının tövsiyələri ilə də tanış etdik. Geniş danışmaq istəməzdim bu barədə, güman edirəm ki, hər kəs məlumatlıdır. Əlbəttə, ilk növbədə jurnalistlər özləri öz sağlamlıqlarının qayğısına qalmalıdırlar. Təhlükəsizlik qaydalarına ciddi əməl etməlidirlər.

**Alim traxomanın müalicəsində istifadə edilən mövcud kütləvi müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiklərindən olan sintomitsindən istifadə ilə yeni müalicə üsulu tətbiq edib uğurlu nəticələrə nail olur. Dəyərli elmi kəşflərdən sayılan bu üsulun kompleks profilaktik tədbirlərlə birlikdə praktik səhiyyədə geniş tətbiqindən sonra traxoma xəstəliyinin müalicəsində əsaslı dönüş yaranır, xəstəliyin yayılmasının qarşısı alınır, bu da tədricən ölkə əhalisi üçün təhlükə törədən ağır infeksion xəstəliyin ləğvinə gətirib çıxarır.**

# Əsl insan, alim və həkim ömrü

*(Əvvəli ötən sayımızda)*

Beləliklə, Zərifə xanımın fədakar əməyi sayəsində yerinə yetirilən tibbi tədbirlər insanların dünya işığından məhrum qalmalarının, iş qabiliyyətini itirmələrinin, çarəsizlikdən kütləvi depressiya vəziyyətinə düşmələrinin qarşısını alır. Yalnız bundan sonra gənc alim 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusu üzrə dissertasiyasını müdafiə edir və tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülür. Apardığı elmi-tədqiqat işlərinin nəticələrinə görə görkəmli həkim daim elmi ictimaiyyətin diqqət mərkəzində olur. 1960-1967-ci illərdə Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq bu sahənin inkişafına böyük töhfələr verir.

## Elm fədaisi

Zərifə Əliyeva ölkə əhalisi arasında göz xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasını düzgün təşkil etməklə yanaşı, yeni laboratoriyalar yaradır, insan sağlamlığı amilini daim ön plana çəkir. Alim yalnız ölkəmizin paytaxtı Bakı şəhərində deyil, həmçinin Sumqayıt, Gəncə, Bərdə, Mingəçevir, Şirvan, Salyan və respublikanın digər şəhər və rayonlarında zərərli iş şəraitlərinin törətdikləri göz xəstəlikləri aşkar edir, həm onların müalicəsinə, iş yerlərində mövcud olan mənfi təsirlərdən qorunmalarına, həm də əmək müəssisələrinin ekologiyasına hərtərəfli diqqət yetirir. Bu müəssisələrdə ekoloji prinsiplərə riayət edilməsi konsepsiyalarının həyata keçirilməsi yollarını göstərir. Bununla da Zərifə xanım Əliyeva peşə amillərinin törətdiyi göz xəstəliklərinin və bütövlükdə orqanizmi tam şəkildə müalicə edərkən təkcə məşhur alim-oftalmoloq kimi deyil, həmçinin bacarıqlı alim-ekoloq kimi də şöhrət qazanır. Zərifə xanım ölkəmizdə həm oftalmologiyanın peşə etiologiyalı xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasının, həm də ekoloji təmizlik ideyasının əsasını qoyur, bu ideyanın praktik səhiyyədə həyata keçirilməsinə nail olur.

Görkəmli alim yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də yüksək səviyyədə aparırdı. O, 1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Göz xəstəlikləri kafedrasında əvvəlcə dosent, sonra professor, daha sonra həmin kafedranın müdiri vəzifəsini yüksək səviyyədə yerinə yetirərək həkimlərin diplomdansonrakı hazırlıqlarının tədris-metodiki göstərişlərə və digər tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaradırdı. Alimin apardığı mühazirə və təcrübə məşğələlərinin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi və s. təşkil edirdi.

Zərifə xanım ADHTİ-də çalışarkən peşə amili etiologiyalı göz xəstəliklərinin yayılma qanunauyğunluqlarını aşkar etmək üçün Bakı Şin Zavodunda, neft-kimya və yod sənayesi müəssisələrində, Sumqayıt "Üzvi sintez" İstehsalat Birliyində, Mingəçevir "İzolit" və rezintexnika məmulatı zavodlarında, Gəncə Gil-torpaq Kombinatında və digər obyektlərdə işləyənlərin görmə orqanlarına mənfi təsir göstərən amilləri, onların etio-patogenezini diqqətlə öyrənir, zərərli peşələrin törətdiyi göz xəstəliklərinin yaranma mexanizmini elmi surətdə əsaslandıraraq onların qarşısını almaq üçün əməli tədbirlər görür. Dünya şöhrətli alim bu xeyirxah işləri yerinə yetirərkən zərərli amillərin təkcə görmə orqanına deyil, bütövlükdə orqanizmə və onun ayrı-ayrı orqanlarına göstərdiyi təsirləri də mükəmməl araşdırır, profilaktik, diaqnostik və müalicəvi tədbirlərin bu istiqamətdə aparılmasına lazımi şərait yaradır.

Alimin aktual problemin həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini verir və o, bu mövzuda dissertasiya müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülür. Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra Zərifə xanım ADHTİ-də müsabiqə yolu ilə professor vəzifəsinə seçilir və qısa müddətdə bu elmi adın təsdiq edilməsi onun gənc kadrların hazırlığı istiqamətində gördüyü işlərin yeni mərhələsinin başlanmasına zəmin yaradır.

## Hamı onun elmi məktəbindən bəhrələnir

1976-cı ildə Zərifə Əliyeva Q.Helmqolts adına Moskva Dövlət Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edirdi. O zaman mən ulu öndər Heydər Əliyevin gənclərin təhsilinə göstərdiyi qayğıdan bəhrələnərək SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin aspiranturasında təhsil alırdım. Namizədlik dissertasiyası müdafiə etməyə hazırlaşırdım. Bizimlə birlikdə hazırda Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əziz oğlu Əliyev də doktoranturada təhsil alırdı, birbirimizlə sıx əlaqə saxlayırdıq.



Həmin dövrdə Zərifə xanımın vətəndən uzaqlarda çox dəyərli bir mövzuda doktorluq dissertasiyası müdafiə etməsi Moskvada tibb elmi sahəsində çalışan bütün azərbaycanlı həkimləri, elmi işçiləri ürəkdən sevindirirdi. Onun müdafiə zamanı etdiyi parlaq çıxışı, opponentlərin və iştirakçıların suallarına verdiyi məntiqli, dolğun cavabları Rusiyanın paytaxtında oftalmologiya sahəsinin beynəlxalq aləmdə tanınan alimlərini də məftun etmişdi. Oftalmologiya üzrə keçmiş Sovetlər İttifaqı məkanından kənar ölkələrdə də böyük nüfuz sahibi olan rus alimlərindən Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.V.Trutneva, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı A.R.Nesterov, Oftalmologiya və Radiologiya Mərkəzinin rəhbəri, Dövlət mükafatı laureatı, professor A.F.Brovkina və başqaları Zərifə Əliyevanın doktorluq dissertasiyası işinin nəticələrini yüksək qiymətləndirərək bu əsərin dünya oftalmologiya elmində yeni yollar, istiqamətlər açdığını, böyük ideyalara başlanğıc verdiyini, yeni ruhlu və düşüncəli həkim-oftalmoloqların yetişəcəyinə zəmin yaratdığını məmnunluq hissi ilə qeyd etmişdilər. Bu, Zərifə Əliyevanın simasında Azərbaycan oftalmologiya elminə verilən yüksək qiymət idi. Böyük alimin elmin çətin yollarından məharətlə keçərək dünya şöhrəti qazanması biz gənclərə örnək oldu. Zərifə xanımın elmi-tədqiqat işlərinin Moskva alimlərinin təsəvvüründə yaratdığı müsbət rezonans Azərbaycan elminin SSRİ dövründəki inkişafının dayaq nöqtəsinə çevrildi. Xüsusilə də biz gənclər üçün vətəndən uzaqlarda bu, olduqca vacib və zəruri idi, bizə stimul verirdi.

Görkəmli alimin elmi məktəbi azərbaycanlı gənclərin hər birinin çalışmalarında əvəzsiz rol oynayırdı. Hamı bu məktəbdən mənəvi qida alırdı. Hadisələrin təhlili göstərirdi ki, Zərifə xanım ilk növbədə dövrün, zamanın nəbzini tutmağı bacarıb, millətinin sağlamlığının qorunması kimi qlobal məsələləri ön plana çəkib. Yeni mövzu götürərkən bunu dissertasiya müdafiə etmək xatirinə yerinə yetirməyib. Elmin yollarında yüksələn xətlə inamla irəliləyib. Alimin bütün elmi-tədqiqat işlərinin bünövrəsində millilik və xəlqilik, vətənpərvərlik və insansevərlik dayanırdı. Böyük alim milli dəyərlərə, milli münasibətlərə, sosial ehtiyaclara söykənərək insanlara bu sahələrdə daha çox lazım olan istiqamətləri seçib və həmin istiqamətlərdə elmi-tədqiqat işləri aparıb. Onun işlədiyi mövzuların məğzində həm də dövlət əhəmiyyətli məsələlər dururdu.

## Yüksək mükafat

1977-ci ildə Bakıda professor Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilir. Bu plenum alimin daha bir müstəsna keyfiyyətinin - mükəmməl təşkilatçılıq bacarığının üzə çıxmasına imkan yaradır. Plenumun işində SSRİ-nin bütün bölgələrindən dəvət olunmuş mütəxəssis-oftalmoloq alimlərin iştirakı təmin olunur. Möhtəşəm elmi məclisdə Zərifə Əliyeva respublikada görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması haqqında təklif irəli sürür və iştirakçılar yekdilliklə bu təklifi müdafiə edir. 1979-cu ildə Bakı Məişət Kondisionerləri Zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı unikal bir laboratoriya yaradılır. Üç şöbədən ibarət olan laboratoriya tezliklə yeni cihazlarla zənginləşdirilir, ölkəmizdə görmə orqanının peşə xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi mərkəzinə çevrilir. Şöbələrdən birində görmə orqanının vəziyyəti yoxlanılır, ikincisində diaqnostik-funksional müayinələr aparılır, üçüncüsündə isə cərrahi əməliyyatlar icra edilir. Zərifə xanımın bu təcrübəsi keçmiş SSRİ-nin digər şəhərlərində də bəyənilərək rəğbətlə qarşılanır, geniş tətbiq edilir. Alimin elmi-tədqiqat işlərinin nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində dolğun əksini tapır.

1981-ci ildə ölkəmizin tibb elminin, səhiyyə sisteminin tarixində son dərəcə mühüm bir hadisə baş verir. Moskvadan alınan xəbərdə qeyd edilir ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elm-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Bu mükafatı oftalmologiya sahəsində müstəsna xidmətləri olan və beynəlxalq aləmdə tanınan məşhur oftalmoloq-alimlər alırdılar. Azərbaycan aliminin belə nüfuzlu mükafata layiq görülməsi ölkəmizin elm aləmində xoş ovqat yaratdı. Moskvadan alınan xoş xəbər Zərifə xanımın uzun illərdən bəri insanlara bəxş etdiyi şəfqət işığının davamı kimi Azərbaycan tibb elminin, tibb təhsili sisteminin, respublika səhiyyəsinin yollarını nura qərq edir. Bir faktı da qeyd edək ki, Zərifə xanım Əliyeva bu mükafata layiq görülən ilk qadın oftalmoloq-alim idi.

***Əhliman ƏMİRASLANOV***
***akademik, SSRİ Dövlət mükafatı laureatı***

***(Ardı növbəti sayımızda)***

# Azərbaycanın siyasi qüvvələrinin mütləq çoxluğu dövlətçilik mövqeyində - buna necə nail olundu...

## **Fazil Mustafa:** *"Artıq ötən əsrin 90-cı illəri deyil ki, ölkənin xarici modellərlə idarə olunmasına maraq göstərilsin"*

**2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda Prezident İlham Əliyev ölkə həyatının bütün istiqamətlərinə diqqət çəkib və qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə bağlı mühüm ismarıclar verib. İlham Əliyev bildirib ki, bu islahatların məntiqi davamı parlament seçkiləri idi:**

"Parlament seçkiləri bir daha xalqımızın iradəsini ifadə etdi, bir daha göstərdi ki, apardığımız siyasət Azərbaycan vətəndaşları tərəfindən bəyənilir, dəstəklənir və parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addımdır. Seçkilərdən sonra parlamentin tərkibi böyük dərəcədə, rəhbər orqanları isə tam dəyişdirildi. Tarixdə ilk dəfə olaraq, müxalifət nümayəndəsi Milli Məclisin sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər, həm sədr, həm müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addımdır, eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcək. İndiki şəraitdə biz açıq-aydın görürük ki, siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da əslində, bizim əsas məqsədimizdir. Çünki əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu, çox müsbət haldır. Ancaq, eyni zamanda, bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır".

Göründüyü kimi, Prezident İlham Əliyev indiki şəraitdə siyasi qüvvələrin mütləq əksəriyyətinin dövlətçilik prinsiplərini hər şeydən üstün tutduğunu vurğulamaqla, bir daha antimilli qüvvələrə və onlardan öz maraqları üçün istifadə edənlərə xatırlatdı ki, Azərbaycanın islahatlar yolu ilə yeni inkişaf mərhələsinə qədəm qoyması, bu istiqamətdə inamla addımlaması xalqın, siyasi qüvvələrin mütləq əksəriyyətinin birmənalı şəkildə dəstəklədiyi, alternativi və geriyə dönüşü olmayan yoldur. Siyasi qüvvələrin mütləq əksəriyyətinin dövlət prinsiplərini hər şeydən üstün tutması olduqca müsbət göstəricidir. Buna necə nail olunub?

Parlamentdə müxalifəti təmsil edən Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa "Bakı Xəbər"ə açıqlamasında bildirdi ki, yeni siyasi konfiqurasiyanın formalaşması istiqamətində ilkin addımlar atıldı:"Birinci mərhələdə parlament azlığı sayılan partiyalar qanunverici orqanın işinə cəlb edildi. İkinci mərhələdə parlament müxalifəti ideyası inkişaf etdirilməlidir. Bu çox normal modeldir. Siyasi mübarizənin episentrinin parlamentə köçürülməsi çox doğru addım sayılar. Dövlətin hər hansı təlatümdən qorunması baxımından da vacib amillərdən biridir. İlkin təmsil,ilik müsbət aura yaratdı. Əvvəllər müxalifət prosesdən kənardaydı, parlament idarəçiliyində YAP və bitərəflər təmsil olunurdu. Ancaq bir vacib detala da fikir verməliyik. Parlamentdə azlıqda olan partiyaların heç də hamısı müxalif mövqedə deyil. Onların arasında iqtidarın kursunu tam dəstəkləyən partiyalar da var. Yəni parlament azlığı deyəndə, yalnız orda təmsilçilik qazanan müxalif partiyalar nəzərdə tutulmur. Radikal, dövlətə qarşı sərt mövqe sərgiləyən müxalifətçilik bəyənilmirsə, qəbul edilmirsə, bunun alternativi sayılan parlament müxalifəti ideyası canlandırılmalıdır. Cünki radikal müxalifətlə bağlı müəyyən neqativ fikirlər səslənəndə bundan müxalif mövqedə olan istənilən adam pay götürə bilir. Bu ay;rım olarsa, hər kəs daha yaradıcı və konstruktiv müxalifət olmağa maraq göstərəcək. Yəni ölkə başçısının da ifadə etdiyi kimi, hakimiyyətə qarşı müxalif olursan, amma ümumilli məsələlərlə bağlı dövlətlə əməkdaşlıq edirsən. Son vaxtlar fikir verdinizsə, özünə radikal müxalifət deyən qüvvələrin çoxu situasiyanı doğru dəyərləndirə bilmədi. Bu da onların yaradıcılıq qabiliyyətlərinin aşağı olması ilə bağlıdır. Mən düşünürdüm ki, bir az yaradıcı hisslərə sahib olan siyasilər bəyanat verə bilərdilər ki, biz bu məsələdə hakimiyyətin atdığı bütün addımları dəstəkləyirik. Heç onların ən radikal tərəfdarları belə buna etiraz etməyəcəkdi. Çünki bu vəziyyət yalnız bizim ölkədə hakim deyil. Dünyanı bürüyən bəşəri mahiyyət alan problemlə bağlı dövlətin yanında olub, atılan addımları dəstəkləmək olardı. Bu ideyanı dəstəkləməmək özünü kənarda qoymaq deməkdir. Məhz bu baxımdan da hesab edirəm ki, Prezidentin vurğuladığı amillər kifayət qədər haqlıdır. Çünki böyük əksəriyyət dövlətçilik mövqeyindədir. Amma müəyyən istisnaları da görürük. Hansısa siyasi qüvvə belə ağır şəraitdə belə dialoq üçün təşəbbüs etmirsə, bu olduqca zərərli yanaşmadan xəbər verir. Ölkə başçısının bu səpkidə səsləndirdiyi iradları da haqlı sayıram".



Azərbaycanın siyasi qüvvələrinin mütləq çoxluğunun dövlətçilik mövqeyində durmağa necə nail olmaqları ilə bağlı isə millət vəkili bunları dedi:"Bu gün Azərbaycanda səmimi müxalifət anlayışı olan insanlar da anlayır ki, zaman başqadır. Artıq ötən əsrin 90-cı illəri deyil ki, ölkənin xarici modellərlə idarə olunmasına maraq göstərilsin. Hansısa xarici qüvvələrin dəstəyi ilə hakimiyyətə gəlmə mexanizmləri də bura üçün keçərsizdir. Yeganə uğur faktoru xalqın dəstəyi ola bilər. Məhz bu səbəbdən də siyasi sistem dövlətçilik anlayışını dərindən mənimsəyərək, dövlətçiliklə bağlı mövqedə mühafizəkar yanaşma ortaya qoyur. Bu çox yaxşıdır. Xalqın hamısı ədalət, demokratiya axtarışında deyil. Belə bir vəziyyətdə siyasi qüvvələr də öz hərəkətlərinə təftişçi yanaşır. Məlum olur ki, köhnə metodlar işləmir. Fikir veririk ki, radikal müxalifət heç zamanın texnoloji imkanlarından belə yararlana bilmir. Normal esse yazmaq qabiliyyəti olan müxalifət niyə mitinq üçün meydan tələb etməlidir? Bacarsalar, elə sosial şəbəklərin yaratdığı imkanlar hesabına öz auditoriyalarına xitab edə bilərlər. Təəssüf ki, yalnız kiminsə şəklini qoyub, onu söydürməklə məşğul olurlar".

Deputatın sözlərinə görə, cəmiyyətimizin problemlərindən biri də kütləyə yaltaqlanmaqdır:"Ziyalılar heç vaxt bu mövqedə olmamalıdırlar. Həqiqəti söyləmək lazımdır. Hakimiyyətdə qorxub kimsə nəyisə söyləməyə bilər. Ancaq kütlədən qorxub həqiqətləri gizlətmək xalqın gələcəyi ilə bağlı məsuliyyətdən boyun qaçırmaq anlamına gəlir. Müxalifətin də əsas vəzifəsi xalqı küyçülüyə yox, demokratiyaya hazırlamaq olmalıdır. Bunu etmədən hakimiyyətə gəlmək olmaz. İndiki hakimiyyət xalqla arasında olan məsafəni yaxınlaşdıra bilib. Xalqın dəstəyi olmasaydı, heç bir hakimiyyətin ömrü 27 il olmazdı. Hakimiyyət xalqın marağını müxalifətdən yaxşı təmsil edə bilir ki, özünü qoruya bilir. Düşünürəm ki, xalqın başlıca marağı təhlükəsizliklə bağlıdır. Bu gün radikal müxalifətin çağırışları xalqın təhlükəsizliyinə zəmanət vermir. İnad mübarizəsi olmamalıdır".

*Məhəmmədəli* **QƏRİBLİ**

# Paşinyanın koronavirus dövründə "pul yığmaq üsulu" - büdcəyə pul qaytarmaq mümkün olan cinayət işlərini yenidən açdırdı

**Ermənistanın Baş naziri Nikol Paşinyan hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə toplantı çağıraraq, hökumətə pul vəsaitlərini geri qaytara bilən bütün cinayət işlərinin yenidən açılmasını tələb edib. Bu haqda Ermənistanın "Past" qəzeti hökumətdəki mənbələrə istinadən yazıb.**



## *Məhəmməd Əsədullazadə: "Paşinyan ciddi maliyyə mənbələri tapa bilmədiyi üçün belə üsullara əl atır"*

Erməni mediası ironiya ilə yazır ki, Paşinyan koronavirusun büdcəyə vurduğu zərəri bu "üsulla" geri qaytarmaq istəyir: "Paşinyan koronavirus böhranının büdcəyə vurduğu ciddi zərbədən sonra dövlət büdcəsinə vəsait axınının təmin edilməsi üçün müxtəlif yollar axtarır. Onlardan biri də belə üsuldur".

Bununla yanaşı, Ermənistan parlamenti "Qanunsuz mənşəli əmlakın müsadirə edilməsi haqqında" qanun layihəsini müzakirə edir. Erməni mediası yazır ki, sözügedən qanunu qəbul etməkdə məqsəd qanunsuz əmlakın iqtisadi dövriyyədən çıxarılmasına və qanuni sahibinə qaytarılmasına dəstək olmaqdır. O da qeyd edilib ki, qanun qəbul edildikdən sonra korrupsioner məmurların əmlaklarının müsadirə edilməsi prosesinə başlanacaq.

Qanun, həmçinin, Baş Prokurorluğa lazımi əsaslar olduqda əmlakın əldə edilməsinin qanuniliyini öyrənməyə və əmlakın müsadirə edilməsini tələb edən iddia təqdim etməyə imkan verəcək. Əlbəttə, əldə edilmiş əmlakın gəlir mənbələri əsaslandırılmalıdır və dəyəri 50 milyon dramı (100 min dollar) aşmamalıdır.

Göründüyü kimi, Paşinyan koronavirusun büdcəyə vurduğu zərəri müxtəlif vasitələrlə doldurmaq istəyir. Ümid edir ki, bəlkə bu yolla nəyəsə nail olacaq.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Paşinyan ciddi maliyyə mənbələri tapa bilmədiyi üçün belə üsullara əl atır: "Ermənistanın iqtisadi və sosial vəziyyəti getdikcə çətinləşir. Bir tərəfdən ölkənin blokadası, digər tərəfdən də koronavirusun geniş yayılması Paşinyanı əlavə maliyyə mənbələri axtarmağa sövq edib. İqtisadiyyatın səmərəsizliyi və rentabelliyin olmaması, demək olar ki, Paşinyanın vəd etdiyi islahatların reallaşmamasına gətirib çıxardı. Bəli, Paşinyan indi də biznesmenləri soymaq, "Qarabağ klanı"nın maliyyə imkanlarını zəiflətmək və elə keçirmək üçün belə bir tapşırıq verib. Hesab edirəm ki, Paşinyanı buna məcbur edən ölkənin sosial bataqlığa yuvarlanmasıdır.

### *"Ermənistanda artıq biznesmenlər də iflasa doğru gedir"*

Fikrimcə, Paşinyan bununla heç də iqtisadi dayanıqlığı möhkəmləndirə bilməyəcək. Ölkədə gedən proseslər siyasi böhrana gətirib çıxaracaq. Ümumiyyətlə, ölkədə artıq biznesmenlər də iflasa doğru gedir. Belə olan təqdirdə bu, Paşinyanın üzən samandan yapışıb imdad diləməsinə bənzəyir. Ona görə də nə qədər ki, Ermənistan işğalçı mahiyyətindən əl çəkməyəcək, iqtisadi rifah olmayacaq".

***Vidadi ORDAHALLI***

# Diaspor, kilsə və Rusiya faktoru Paşinyanın axırına çıxır

**Məlum həqiqətdir ki, Ermənistanın dövlət kimi, formal olsa da, ayaqda qalmasında diaspor, kilsə və Rusiya faktoru daim mühüm rol oynayıb. Amma hazırda Nikol Paşinyan iqtidarının hər üç amillə mühüm problemləri var. Artıq sirr deyil ki, Rusiya Paşinyan iqtidarını hakimiyyətdə görmək istəmir.**



Beynəlxalq münasibətlər üzrə erməni ekspert Ara Papyan bildirir ki, Kreml heç vaxt Paşinyanı qəbul etməyəcək. Onun sözlərinə görə, hər şeydən əvvəl qəbul etmək lazımdır ki, hazırda beynəlxalq münasibətlərdə, eləcə də daxili dövlət münasibətlərində vəziyyət olduqca fərqlidir:

"Mən hər zaman demişəm, indi də deyirəm ki, Nikol Paşinyanın Rusiyaya qarşı hansı siyasəti həyata keçirəcəyindən asılı olmayaraq, o, əvvəlki hakimiyyətdən daha çox rusyönümlü siyasət aparır. Amma Rusiya onu qəbul etmir. Putinin şəxsən Paşinyanla problemi var. Bu, şəxsi məsələdir və Putin Paşinyana inanmır. Bu, heç vaxt dəyişməyəcək və Kremlin hərəkətləri də bunu isbat edir".

Diaspor qüvvələri, xüsusən Rusiyada, ABŞ-da və Avropada olan erməni lobbisi ilə də Paşinyan arasında münasibətlər gərginləşən xətt üzrə inkişaf edir. Eləcə də Paşinyanın kilsə ilə problemləri dərinləşir. Ümumiyyətlə, faktdır ki, Paşinyan baş nazir olduqdan sonra kilsə ilə hökumət arasında dərin bir uçurum yaranıb. Xatırladaq ki, Paşinyan hələ hakimiyyətə gələnə qədər II Qaregindən qurtulmağın vacibliyindən açıq danışırdı. İrəvanda sırf buna görə bir neçə etiraz yürüşünü də təşkil etmişdi. Lakin erməni keşişləri arasında Paşinyanın yetərli dəstəyi olmadı. Maraqlıdır ki, indiki durumda Rusiyada da Paşinyan-kilsə qarşıdurmasında ikinciyə daha çox dəstək ifadə olunur. Bu hal sabiq prezident Robert Köçəryan amili ilə bağlı olaraq daha da dərinləşib. Qeyd edək ki, katolikos bundan öncə Köçəryanın koronavirus təhdidi ilə əlaqədar olaraq azadlığa buraxılmasını istəyib. Ermənistan hökuməti isə bunun əleyhinə çıxıb. Bundan başqa, "axar.az" portalının məlumatına əsasən, Ermənistan hökumətinin koronavirus səbəbindən ölkədə tətbiq etdiyi fövqəladə vəziyyət erməni kilsəsinin narazılığına səbəb olub. Ölkədə bir sıra qurum və hətta sahibkarların belə koronavirusla əlaqədar məsuliyyətli davranmağına baxmayaraq, kilsə baş verənləri görməzdən gələrək, hələ də kütləvi mərasimlərin keçirilməsinə izn verir.

Xatırladaq ki, bu xüsusda Rusiyanın "lenta.ru" saytı da elə bu günlərdə maraqlı yazı dərc edib. Qeyd olunur ki, Ermənistan hökumətinin ölkədə fövqəladə vəziyyət rejimini daha 30 gün uzatmasına rəğmən, ermənilər Pasxa bayramı zamanı buna əməl etməkdən imtina edib. Məlumata görə, Pasxa bayramı zamanı kilsələrin bağlı olması belə özünütəcridlə bağlı qaydaların pozulmasının qarşısını almağa kifayət etməyib. Sayt əhalinin belə davranışın koronavirusdan öz maraqları üçün istifadə etməyə çalışan kilsə və dövlətin addımları ilə əlaqədar olduğunu bildirib. Belə ki, ölkədə bir sıra qurum və hətta sahibkarların belə koronavirusla əlaqədar məsuliyyətli davranmağına baxmayaraq, kilsənin baş verənləri görməzdən gələrək, hələ də kütləvi nikah mərasimlərinin keçirilməsinə izn verdiyi vurğulanıb: "89% erməni özünü inanclı sayır, amma yalnız 10% şəxs həftədə bir dəfə kilsəni ziyarət edir. Digər tərəfdən, Ermənistanda infeksiyanın əsas ocağı ölkənin dini paytaxtı sayılan Eçmiədzin oldu. Məhz burada bütün ermənilərin katalikosu II Qareginin əsas iqamətgahı yerləşir. Bu şəhərdə 8 martda bir müddət öncə İtaliyadan qayıdan, öz simptomlarını gizlədən qadın nişan mərasimi zamanı qonaqları yoluxdurdu. Kilsə təkcə hakimiyyətin çağırışlarını nümayişkaranə şəkildə rədd etmədi, həm də dünyəvi hakimiyyətin dini hakimiyyətə əmr verə bilməyəcəyinə eyham vurdu". Qareginin hökumətin çağırışlarına cavab olaraq kilsələri bağlamaq yerinə özünün adamları vasitəsilə ona qarşı kəskin hücumlara başladığı da vurğulanıb. Belə ki, kilsə səhiyyə naziri Arsen Torosyanı hədəf alıb və onun kilsəni ləkələmək üçün koronavirusdan bəhanə kimi istifadə etdiyi qeyd edilib. Torosyan isə ittihamlara səssiz qalmayıb və kilsəyə bir sıra ölkələrdə koronavirusun məhz dini rituallar ucbatından yayıldığına dair eyham vurub. Hökumət bundan sonra da kilsə ilə məxfi danışıqlar apardı da, heç bir uğur əldə edə bilməyib.

Vəziyyətin nəzarətdən çıxmasından sonra Paşinyan sərt hərəkət edərək, ölkədə fövqəladə vəziyyət tətbiq edib və bütün toplantı yerlərinin, o cümlədən kilsələrin fəaliyyəti tam dayandırılıb. Buna rəğmən kilsə hələ də təslim olmayıb və fəaliyyətini əvvəllər günah hesab edilən onlayn rejimə keçirib. "Lenta.ru" əslində hökumətlə kilsə arasında yaşananların dinlə əlaqəsinin olmadığını bildirib. Belə ki, Paşinyanın hakimiyyətə gəlməsindən sonra hökumət kilsənin zənginliyinin səbəblərini araşdırmağa başlayıb, məktəblərdən dini yığışdırıb və ateistlər üçün dövlət vəzifələrini açıq elan edib. Hətta Eçmiədzinə belə ateist qadın rəhbər gətirilib ki, bu da kilsəni qəzəbləndirib:"Koronavirus kilsəyə revanş üçün yaxşı bəhanə olub. Bütün dünyada həkimlər, virusoloqlar koronavirus tapmacası üzərində baş sındırdığı bir zamanda Ermənistanda dindarların səyləri ilə buna "çarə" dərhal tapılıb. Məsələn, erməni kilsələrindən birinin Feysbuk səhifəsində buxur tüstüsünün mikrobların havada, suda və orqanizmində artmasının qarşısını aldığı və bütün virusları məhv etdiyinə dair saxta elmi dezinformasiya paylaşılıb. Bunun mənasının nə olduğu aydındır. Erməni Apostol Kilsəsinin Ararat Yeparxiyasının rəsmi saytında buxurun təkcə kilsədən alınmasına dair tapşırıq var". Bundan başqa, Paşinyana yaxın media orqanları, sosial şəbəkə istifadəçiləri yenidən kilsə rəhbərinin dəyişdirilməsinin vacibliyini gündəmə gətiriblər. Ermənistan parlamentinin vitse-spikeri Alen Simonyan bu xüsusda bildirir ki, minlərlə Ermənistan vətəndaşı artıq çoxdan katolikosun dəyişdirilməsini tələb edir:"II Qaregin bəyan edib ki, Robert Köçəryana münasibətdə həbs-qətimkan tədbiri dəyişdirilməlidir. Mən deyərdim ki, Ermənistanın minlərlə vətəndaşı artıq çoxdan katolikosun dəyişdirilməsini tələb edir. Düşünürəm ki, vətəndaş Ktriç Nersisyan (II Qareginin əsl adı) illərlə səssiz qalıb, bu gün isə pulu bol olan Köçəryanın ilkin həbsinin dəyişdirilməsinin zəmanətçisi kimi çıxış etmək qərarına gəlib". Hesab edilir ki, yaranmış vəziyyətdə kilsə ilə Paşinyanın qarşıdurması daha da dərinləşəcək. Bu isə Ermənistanı hələ qarşıda daha çox problemlərin gözlədiyini deməyə əsas verir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan yenə Ermənistanı məğlub duruma saldı - dünyanın Qarabağdakı "seçki" şousuna sərt təpkisi də səngimir...

**Azərbaycanın zəbt edilmiş ərazilərində Ermənistan tərəfindən təşkil edilən "seçkilər"ə beynəlxalq reaksiyalar İrəvan üçün növbəti diplomatik zərbə qismində qəbul edilir. Artıq Ermənistanın özündə də etiraf edilir ki, dünya ictimaiyyəti Dağlıq Qarabağda baş verənlərə əvvəlki dövrlə müqayisədə indi daha sərt reaksiya sərgiləyir. Bu isə Azərbaycanın fəal diplomatiya yürütməsi ilə də izah olunur.**

Baş verənlərlə bağlı Ermənistanın "İrates" qəzeti yazır ki, İrəvan və erməni diasporu lazımı addmlar ata bilmir: "Azərbaycan bundan maksimal dərəcədə istıfadə etməyə çalışır və istəyinə də nail olur. Hər halda, Qarabağda "seçki" məsələsinə reaksiyalar da bunu göstərdi". Həqiqətən də "seçkinin" həm birinci, həm də ikinci "turundan" sonra bütün aparıcı beynəlxalq təşkilatlar açıq-aydın şəkildə bu "seçkiləri" tanımadıqlarını bəyan etdilər. Ekspertlərin fikrincə, bununla işğalçı Ermənistanın separatçı rejimdə keçirdiyi qondarma "seçkilərin" nəticələrini tanımamaqla bağlı beynəlxalq birliyin nümayiş etdirdiyi yekdil mövqe Azərbaycanın münaqişənin həlli ilə bağlı həm siyasi, həm diplomatik, həm də hərbi üstünlüyünü daha da gücləndirmiş oldu. Burada bir daha xatırladaq ki, separatçı rejimin "seçki" adlı oyunundan dərhal sonra bütün aparıcı beynəlxalq təşkilatlar, xüsusilə ATƏT-in Minsk Qrupunun həmsədrləri, ATƏT Parlament Assambleyası, Avropa İttifaqı, Avropa Parlamenti, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası səsləndirdikləri bəyanatlarında qondarma "seçkiləri" tanımadıqlarını və beləliklə də Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha bəyan etdilər. ATƏT-in Minsk Qrupunun həmsədrləri olan ABŞ, Fransa və Rusiyanın ayrıca müvafiq açıqlamalar verməsi də Ermənistan üçün daha bir zərbə oldu. Ermənistan parlamentinin "Mənim addımım" fraksiyasının deputatı Şirak Torosyan belə etiraf edir ki, bu hal Ermənistan üçün qeyri-məqbuldur:"Qarabağda baş tutmuş "seçkilər"lə bağlı beynəlxalq ictimaiyyətin reaksiyaları vacibdir. Xüsusən, ATƏT-in Minsk Qrupu həmsədrlərinin bəyanatı Ermənistan üçün vacib idi. Onalrın bəyanatında açıq qeyd edilirdi ki, onlar Qarabağın gələcək statusu məsələsində bu "seçkilər"in nəticələrini tanımırlar. Deməli, biz yetərincə iş apara bilməmişik". Erməni mediası yazır ki, regionda vacib oyunçu olan Rusiya və ABŞ qeyd olunan məsələdə Azərbaycanı dəstəkləyir. "İrates" qəzeti yazır ki, "seçki" ilə yanaşı, digər parametrlər baxımından da onlar Azərbaycanın yanında yer alır. Məsələn, bir müddət əvvəl ABŞ hökuməti Dağlıq Qarabağın inzibati ərazisində və işğal edilmiş ətraf rayonlarda neçə illərdir minaların təmizlənməsini həyata keçirən "Halo Trust" təşkilatının maliyyələşdirilməsini dayandırıb. Bundan dünya erməniləri, o cümlədən diaspor çox narahat olub. ABŞ-ın İrəvandakı səfiri Linn Treysi bu günlərdə keçirdiyi videokonfransda Qarabağa maliyyə yardımını kəsəcəkləri ilə bağlı məsələyə münasibət bildirərkən, Ermənistan istisna olmaqla, son 20 ildə işğal altındakı Dağlıq Qarabağa maliyyə yardımı ayıran yeganə ölkə olduqlarını xatırladıb:"Son 20 ildə müvafiq proqram çərçivəsində Qarabağda minalanmış ərazilərin təmizlənməsinə etdiyimiz yardımlardan məmnunuq. Ötən bu müddətdə ABŞ Dağlıq Qarabağa 17 milyon dollar məbləğində maliyyə yardımı göstərib. Amma indi buna ehtiyac olmadığı düşünülür". Rusiya da prosesə yanaşmada Ermənistan üçün sərfəli mövqe sərgiləmir. Bu xesusda erməni mediası ABŞ-da Rusiya əleyhinə çıxışlar etmiş və qondarma "seçkilərin" "ikinci turunda" da "uduzmuş" Masis Mailyanın Moskva tərəfindən cəzalandırılmasını buna misal göstərir. Ona Rusiya ərazisinə 5 il müddətinə səfər etmək qadağan edilib. Bunun səbəbi açıqlanmayıb. Ehtimal etmək olar ki, Mailyan amerikapərəstdir və buna görə Moskvanın ondan xoşu gəlmir. Lakin erməni mediası yazır ki, Moskva istənilən vaxt eyni yanaşmanı "seçkilərdə" qalib gəlmiş keçmiş "baş naziri" Araik Arutyuyana münasibətdə də sərgiləyə bilər. Erməni hüquq müdafiəçisi Artur Sakunts bildirir ki, ümumiyyətlə, Moskvanın İrəvana münasibəti əhəmiyyətli dərəcədə dəyişib: "Bunu Qarabağdakı "seçkilərə" münasibətdə sezmək olar. Amma digər məqamlar da var. Məsələn, Rusiyanın 102-ci hərbi bazasının hərbçilərini koronavirus təhdidi ilə bağlı testdən keçirməsi ortaya yeni məqamlar çıxarıb. Rusiya bu bazaya virusla bağlı xeyli ləvazimat göndərib. Ermənistana da, az miqdarda olsa da, belə yardım göndərib. Amma burada xeyli problemlər də mövcuddur. Testlərin Rusiya hərbi bazasında keçirilməsi nə qədər yaxşı olsa da, Ermənistan Silahlı Qüvvələri ilə əlaqəli olaraq narahatlıqlar var. Bir qayda olaraq, belə bir şəraitdə texniki və ya təşkilati, maddi dəstəyin verilməsi yalnız bəzi materialların ayrılmasını deyil, həm də həmin imkanların inkişafını nəzərdə tutur. Yəni göstəriləcək dəstəyi göstərə bilmək, həyata keçirmək üçün mütəxəssislərin hazırlığı olmalıdır. Rusiya məhz bu məsələdə Ermənistana heç bir yardım göstərmir. Burada onlar infeksiya olmadığını söyləsələr, bunun reallığa uyğun olub-olmaması barədə sual yarancaq. 102-ci Rusiya hərbi bazasının hər bir hərbçisi yoxlanılmalıdır, xüsusən yeni növbə, yeni heyət gəldiyində hamısı sınaqdan keçirilməlidir və risqləri ehtiva edən, Gümrü sakinlərinin və ümumilikdə Ermənistan vətəndaşlarının sağlamlığına təhlükə yarada biləcək Rusiya hərbi bazasına heç bir virusa yoluxmuş hərbçinin Ermənistana daxil olmayacağına əmin olunmalıdır. Amma Moskva bunu etmir. Əvəzində Rusiyadakı erməniləri geri göndərməyə hazırlaşır. Yəni görünən budur ki, Rusiya Ermənistanda sadəcə öz hərbçilərini düşünür və bu da onun ermənilərə münasibətidir. Bu halda Qarabağdakı "seçkiləri" Rusiyanın əhəmiyyətsiz bir hal adlandırmasında da təəcüblü heç nə axtarmaq lazım deyil. Onun üçün indi Azərbaycan və Türkiyə daha maraqlı tərəf qismində çıxış edir".

Bütün bu qeyd edilənlərdən bəlli olur ki, Qarabağda "seçkilərə" dünyanın, o cümlədın ABŞ və Rusiyanın reaksiyası Ermənistanda böyük rezonans yaradıb. Ekspertlər hesab edir ki, əslində bu "seçkiləri" təşkil etməklə Ermənistan sülh prosesinin üzərindən xətt çəkir. Elə dünyanı narahat edən əsas məqamlardan biri də bu olduğu üçün İrəvanın Qarabağdakı şousuna sərt reaksiya sərgiləndi.

İşğal olunmuş Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkilər" münaqişənin nizamlanması üzrə danışıqlar üçün müsbət mühitin yaradılmasına xidmət etmir. ATƏT-in Minsk Qrupunun amerikalı sabiq həmsədri Metyu Brayza da məsələyə məhz bu prizmadan yanaşır. O bildirib ki, bir ölkə tərəfindən digər ölkənin işğal olunmuş ərazilərində "seçki" keçirilməsi tərəflərin barışığı üçün zəruri olan psixoloji əhvalın formalaşmasına xidmət etmir: "Dağlıq Qarabağa gəldikdə, bu, Azərbaycanın ərazisidir və bunu dünya ölkələri qəbul edir. Yaxşı olardı ki, qondarma "seçkilər" keçirilməyəydi". Brayzanın sözlərinə görə, hökumətlərin bəyanatında açıq-aşkar deyilir ki, qondarma "seçkilər" heç nə ifadə etmir, çünki onlar Dağlıq Qarabağda qurulmuş qondarma rejimin "müstəqilliyini" tanımırlar:"Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının uzun müddət müzakirə olunan və 2019-cu ilin yanvarında razılaşdırılan əsas prinsipləri ifadə edir ki, Dağlıq Qarabağ sakinləri öz nümayəndələrini seçmək hüququna malik olacaq, amma bu yalnız münaqişə üzrə əldə olunan baza prinsiplərinə əsaslanan çərçivə sazişi əldə olunduqdan sonra mümkün ola bilər". Rusiyalı ekspert Qalina Niyazova isə xatırladır ki, qondarma "Dağlıq Qarabağ Respublikası" heç bir şəkildə dövlət deyil. Onun sözlərinə görə, ilk növbədə, dünya ictimaiyyəti işğal olunmuş bu torpaqların müstəqilliyini tanımır və tanımayacaq:"İkincisi, "müstəqillik" sözü öz daxili ehtiyatları hesabına, müstəqil şəkildə inkişafı ifadə edir. Amma nə marionet "DQR" rejimi, nə də qondarma "DQR"i idarə edən və özü də Rusiyanın himayəsində olan Ermənistan bütün bunlara malikdir". Ekspert əlavə edib ki, işğal olunmuş Dağlıq Qarabağda legitim seçkilər barədə yalnız bu ərazilərin azad edilməsindən sonra danışmaq olar: "Aydındır ki, o zaman qondarma "prezident seçkiləri"ndən söhbət getməyəcək, yalnız regionun inkişafı və sakinlərin təhlükəsizliyi üçün məsuliyyət daşıyan qurumların seçilməsindən söhbət gedir. Amma indiki qondarma "respublika"da koronavirus pandemiyası və karantin şəraitində seçkilər keçirməklə hakimiyyətə iddia edənlər bu xüsusiyyətlərə malik deyillər".

Amerikalı ekspert Rob Sobhaninin fikrincə isə, dünyada müşahidə olunan koronavirus böhranı fonunda işğal olunmuş Dağlıq Qarabağda qondarma "seçkilər"in keçirilməsi qəribə və uğursuz addımdır. O bildirib ki, bu, heç bir şəkildə sülhə nail olmağa xidmət etmir və hətta sülh prosesinə ziyan vura bilər:

**"Münaqişələrin həllinə görə məsuliyyət daşıyan beynəlxalq ictimaiyyət qondarma "seçkilər"in keçirilməsindən məmnun olmayacaq, çünki onlar əməkdaşlıq və sülhə xidmət etmək niyyətindədir". Sobhani qeyd edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri bu şəraitdə münaqişənin nizamlanması üzrə səyləri bərpa edə bilər:"Faktiki olaraq, dünyada pandemiya ilə bağlı yaranan vəziyyət göstərir ki, dünya liderləri Ermənistan və Azərbaycan arasındakı münaqişə kimi problemlərin həlli üçün əməkdaşlıq etməlidir". Məhz belə vəziyyət bir daha nümayiş etdirir ki, Qarabağda "seçkilər" Ermənistan üçün diplomatik müstəvidə problem yaratmaqdan başqa heç nəyə xidmət etmir.**

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə vəsaiti ilə çap olunur.**

**Deputatlığa sabiq namizəd Musa Ağayevin təsis etdiyi "Yeni Zaman" partiyası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınıb. "Yeni Zaman" partiyasının sədri Musa Ağayevlə əlaqə saxlayıb onunla partiyanın təsis tarixi, görəcəyi işlər, fəaliyyət istiqamətləri, qarşıya qoyduğu hədəflər barədə danışdıq.**

# Dövlət qeydiyyatı üçün 13 il gözləyən partiya sədri "Aparatdakı" köhnə kadrları günahlandırdı...

***Musa Ağayev:** ”Başqa siyasi partiyalardan bizim partiya həm özünün proqramı, həm də o proqramı həyata keçirmək mexanizmi ilə fərqlənəcək”*

**- Musa müəllim, rəhbərlik etdiyiniz partiyanın Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınması münasibətilə sizi təbrik edirik. "Yeni Zaman" partiyasını nə zaman yaratmısınız?**

- Partiya 2007-ci ildə təsis olunub, lakin 13 il idi ki, partiyamızı qeydiyyata almırdılar. Qeyd edim ki, aprelin 15-də partiyamız qeydiyyatdan keçib və aprelin 16-da isə bizə partiyanın qeydiyyatı haqqında şəhadətnaməsini təqdim ediblər.

**- Musa müəllim, partiyanız qeydiyyata alınmasa da, fəaliyyətiniz olub. Ümumiyyətlə, fəaliyyətiniz hansı istiqamətləri əks etdirib?**

- Fəaliyyətimizin əsas göstəricilərindən biri o idi ki, biz imkan daxilində ölkədə keçirilən seçkilərdə iştirak etmişik, ölkə ictimaiyyətinə dəstək olmağa, ölkədə siyasi plüralizmin qorunmasına, siyasi partiyaların fəaliyyətinin genişlənməsinə həmişə töhfələr verməyə çalışmışıq. Təəssüflər olsun ki, bizim özümüzə maneələr var idi, partiyanın qeydiyyat məsələsi həll olunmurdu. Amma indi hesab edirəm ki, ölkə başçısının siyasi partiyaları dialoqa çağırması, eyni zamanda da aparılan islahatlar öz nəticəsini verir. Fikrimcə, bundan sonra da bu islahatlar, bu dialoqlar Prezidentin rəhbərliyi ilə davam edəcək. Çünki ölkədə yalnız iqtisadi deyil, siyasi və məhkəmə islahatlarının da həyata keçirilməsi lazım idi. Biz həmişə bunu müsahibələrimizdə vurğulayırdıq. Yeni ölkədə siyasi-iqtisadi, məhkəmə islahatlarının davam etdirilməsi çox vacibdir və buna da artıq start verilib. Ölkədə vətəndaş həmrəyliyi, vətəndaş birliyi, eləcə də iqtidar-müxalifət məsələsində konstruktiv dialoqa nail olunması, o cümlədən də bir sıra başqa taleyüklü məsələlər var ki, burada həmrəylik göstərmək lazımdır. Biz bir partiya olaraq bu məsələlərə konstruktiv mövqedən yanaşmağın tərəfdarıyıq. Çünki artıq dünya dəyişib, bir neçə ildir bir qütblülükdən çıxıb, çoxqütblülüyə doğru gedir. Koronavirusdan sonra, ümumiyyətlə, pandemiya olmasaydı belə, başqa problemlər ortaya çıxacaqdı. Həmişə belə olub, əsrdə bir neçə dəfə dünyanın bölüşdürülməsi məsələsi ortaya çıxıb.

Azərbaycan dövləti 29 illik müstəqillik tarixinə malik gənc, müstəqil dövlətdir. Hesab edirəm ki, dövlətçiliyin möhkəmlənməsi üçün hər bir siyasi partiyadan, hər bir vətəndaşdan çox şey asılıdır və hər birimiz buna uyğun hərəkət etməliyik.

**- Musa müəllim, dediniz ki, rəhbərlik etdiyiniz partiyanın qeydiyyata alınması üçün maneələr vardı. Konkret hansı əngəllər nəzərdə tutursunuz?**

- Bütün sənədlər qaydasında olmasına baxmayaraq, 13 il bizim partiyanın qeydiyyata alınmasından imtina edilmişdi. Partiyanın qeydiyyata alınması ilə əlaqədar olaraq bizim Ədliyyə Nazirliyi ilə saysız yazışmamız olub. Nazirlik bizə partiyanın nizamnaməsində, proqramında, sənədlərində hansısa bir nöqsanın olduğunu konkret göstərə bilməyib. Bizim partiyanın qeydiyyatdan keçməsinə qarşı süni əngəllər var idi. Hesab etmirəm ki, bu, Ədliyyə Nazirliyindən asılı bir məsələ idi. Hesab edirəm ki, bu, "Aparatda" oturan köhnə kadrlardan, bürokratlardan asılı idi. İndi bilirsiniz ki, Prezident Administrasiyasında da, hökumətdə də islahatlar həyata keçirilir, kadr dəyişikliyi edilir. Fikrimcə, bu dəyişikliklər Azərbaycan dövləti, xalqı naminə öz müsbət bəhrəsini verməlidir, verir də.

**- "Yeni Zaman"ın neçə üzvü var, partiyanızın hansı rayonlarda təşkilatları yaradılıb?**

- 28 rayonda partiyamızın ilkin təşkilatları var, üzvlərimizin sayı isə 11 minə yaxındır. Mən həmişə demişəm ki, söhbət partiyanın üzvlərindən getmir. Partiya elə fəaliyyət göstərməlidir ki, tərəfdarları çox olsun. Yeni partiyanın seçkilərdə qalib gəlməsi, partiyanın nüfuzu, partiyanın öz proqramını yerinə yetirməsi üçün onun tərəfdarları daha çox olmalıdır. Bu da, əlbəttə, partiyanın proqramından, onun nə cür təbliğatını aparmağından və insanları öz proqramına inandırmağından asılıdır. İndi XXI əsrdir. Partiyaların proqramını internetdə də yerləşdirmək, mətbuat vasitəsilə də yaymaq olur. Bu məsələdə KİV nümayəndələri xüsusi rol oynayır. Həmişə deyirəm ki, Azərbaycan dövlətinin, xüsusilə də vətəndaş cəmiyyətinin inkişafı üçün oynadığı rola görə, ilk növbədə, birinci yeri mətbuat tutur. Yeni siyasi partiyalar mətbuatdan həmişə çox-çox geri qalırlar.



*”Təəssüflər olsun ki, bizim özümüzə maneələr var idi, partiyanın qeydiyyat məsələsi həll olunmurdu”*

**- Ölkəmizdəki partiya bolluğunda "Yeni Zaman" nə ilə fərqlənəcək?**

- Hesab edirəm ki, başqa siyasi partiyalardan bizim partiya həm özünün proqramı, həm də o proqramı həyata keçirmək mexanizmi ilə fərqlənəcək. Eyni zamanda, biz vətəndaşlarımızı aparılan islahatlara, demokratik inkişafa və plüralizmə inandırmağa müvəffəq olacağıq. Çalışacağıq ki, xalq üçün daha vacib olan müasir, konstruktiv proqramlar ortaya qoyaq.

**- Görünən odur ki, cəmiyyət, ictimaiyyət rəhbərlik etdiyiniz partiyanın aktivliyinin şahidi olacaq.**

- Bəli, inşallah.

***İradə SARIYEVA***

"İlin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək". Bunu Prezident İlham Əliyev bi ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədəki çıxışında deyib. Dövlət başçısı bildirib ki, qeyri-neft sənaye sektorunda artım 23 faizdir.

# Azərbaycanda koronavirusa qədərki heç bir sosial layihənin təxirə salınmayacağına yüksək təminat verildi...

## *Aydın Hüseynov: "Bu, dövlətin öz vətəndaşlarına verdiyi böyük dəyərin göstəricisidir"*



Bu da onu göstərir ki, son müddət ərzində bu sahəyə göstərilən diqqət və qoyulan sərmayə öz gözəl nəticəsini verməkdədir: "İnflyasiya 3 faiz səviyyəsindədir, ilin iki ayında 2,8 faiz idi, bir qədər artıb. Əhalinin gəlirləri isə 7 faizə yaxındır. Üç ayda vergi və gömrük orqanları büdcəmizə proqnozdan əlavə 310 milyon manatdan çox vəsait daxil etmişlər. Xüsusilə nəzərə alsaq ki, indi iqtisadi fəallıq aşağı düşüb, bu, hesab edirəm ki, yaxşı nəticədir, yenə də şəffaflıqla bağlı olan tədbirlərin bariz nümunəsidir. Bildirməliyəm ki, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Əksinə, koronavirusla bağlı ümumi dəstək paketi 2,5 milyard manat nəzərdə tutulur. Ancaq bundan artıq olacaq. Təkcə lazımi avadanlıqların, ləvazimatların alınması üçün bu yaxınlarda Prezidentin ehtiyat fondundan 97 milyon manat ayrıldı. Bundan sonra da ilin sonunadək nə qədər lazımdırsa, hələ 150 milyon manatın ayrılması da nəzərdə tutulur. Bu, 2,5 milyard manatın içində deyil. Bütün sosial ödənişlər aparılır".

Nüfuzlu beynəlxalq ekspertlər, maliyyə qurumları həyəcan təbili çalaraq bədbin proqnozlar verirlər. Bəyan edirlər ki, dünya iqtisadiyyatı növbəti resessiya, ötən əsrin 30-cu illərindən bəri görünməyən böhran ərəfəsindədir. O üzdən, böhrana əsas səbəb olan koronavirusla mübarizə məqsədilə yaranan ziyanları minimuma endirmək üçün sosial layihələri ixtisar edirlər. Azərbaycan isə, bütün çətinliklərə rəğmən, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Buna ən yüksək səviyyədə təminat verildi. Bu baxımdan, sözügedən məsələnin əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

*"Gözlənilməyən şokların qarşısının alınmasında mövcud proqramların rolu böyükdür"*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, bu, Azərbaycan dövlətinin öz vətəndaşlarına verdiyi böyük dəyərin göstəricisidir: "Bunun nəticəsidir ki, pandemiyanın təsirlərini minimuma endirmək üçün büdcədən 2,5 milyard manatdan çox vəsait ayrılıb. Bu vəsaitlər dəyən zərərin kompensasiyasına, vətəndaşların əməkhaqlarının ödənilməsinə yönəldiləcək. Bütün bunlarla yanaşı, ilin sonuna qədər nəzərdə tutulan bütün sosial proqramlar həyata keçiriləcək. Məcburi köçkünlər və digər kateqoriyadan olan şəxslər üçün nəzərdə tutulan layihələr icra ediləcək. Sadalananlar bir daha onu göstərir ki, ölkədə aparılan sosial siyasətin əsas məğzi əhalinin həyat səviyyəsini yaxşılaşdırmağa hesablanıb. Ölkə iqtisadiyyatının bütün resursları vətəndaşların xidmətindədir. Bununla belə, həmin resurslar ölkə iqtisadiyyatının inkişafına yönəldilir. Həyata keçirilən sosial siyasət ciddi ehtiyatlara söykənir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın kifayət qədər valyuta ehtiyatı var. Başqa bir tərəfdən, gözlənilməyən şokların qarşısının alınmasında mövcud proqramların rolu böyükdür".

*Vidadi ORDAHALLI*

Prezident İlham Əliyev öz sədrliyi ilə keçirilən, ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə zamanı yaranmış pandemiya vəziyyətilə bağlı dövlət xərclərinə yenidən baxılmasının zəruriliyini bildirib:

# İnvestisiya və cari xərclərə indikindən də artıq nəzarətin mümkün formaları - Prezident yeni müzakirə açdı...

## *Asif İbrahimov: "Cari xərclərin azaldılması ilə bağlı qurumların qarşısına konkret tələblər qoyulsa yaxşı olar"*



"Ancaq bir daha demək istəyirəm ki, iqtisadi vəziyyətə pandemiyanın təsiri qaçılmazdır. Biz artıq bunu görürük. Ona görə hökumətə tapşırıq verirəm, xüsusilə Baş nazirə, Maliyyə nazirinə və İqtisadiyyat nazirinə ki, dövlət xərclərinə yenidən baxılsın və prioritet təşkil etməyən xərclər ixtisar edilsin. Eyni zamanda, vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bundan əvvəl də bildirmişdim. Son vaxtlar bu istiqamətdə müsbət dinamika göz qabağındadır və bunun nəticəsində biz həm keçən il, həm də bu ilin üç ayında büdcəmizə əlavə maliyyə vəsaiti daxil edə bilmişik. Ancaq hesab edirəm ki, burada hələ ehtiyatlar var, həm investisiya xərclərinə, eyni zamanda, cari xərclərə yenidən baxılmalıdır. Çünki bəzi hallarda cari xərclər şişirdilir. Xüsusilə dövlət təşkilatlarının, dövlət şirkətlərinin cari xərcləri əfsuslar olsun ki, şişirdilir və bu sahəyə çox ciddi diqqət göstərilməlidir. Bu sahədə şəffaflığın tam təmin olunması istiqamətində əlavə addımların atılması zəruridir. Hesab edirəm ki, biz bunun hesabına, əlbəttə, öz iqtisadi-maliyyə vəziyyətimizi sabit saxlayacağıq. Eyni zamanda, hökumətə tapşırıram ki, yeni gəlir mənbələri aşkar edilməlidir. Yenə də demək istəyirəm ki, ehtiyatlar var, çoxdur. Son müddət ərzində bu ehtiyatların bir hissəsi artıq üzə çıxıb və büdcəyə daxilolmalar artır, keçən il və bu il. Keçən il büdcəyə proqnozdan əlavə bir milyard manatdan çox vəsait daxil edilibdir, bu ilin üç ayında 300 milyon manatdan çox. Ona görə bu məsələyə çox diqqətlə baxmaq lazımdır və təkliflər hazırlanmalıdır. Yenə də demək istəyirəm ki, biz bilmirik bu vəziyyət nə qədər çəkəcək. Ona görə öz addımlarımızı elə atmalıyıq ki, iqtisadi, makroiqtisadi sabitlik təmin edilsin".

Göründüyü kimi, Prezident həm investisiya, həm də cari xərclərə nəzarətin vacibliyini vurğuladı. Bu istiqamətdə indiyədək edilənlərdən fərqli daha hansı addımları atmaq olar?

Beynəlxalq qiymətləndirmə üzrə ekspert, iqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, indiki zamanda büdcəyə korrektələr mütləq lazımdır:"Azərbaycanın iqtisadiyyatında olan müəyyən idarəetmə modelləri çoxxərcli sayılır. Biz məmur sayına görə öndə gedən ölkələrdənik. Bu da öz növbəsində əlavə xərclər və maliyyə itkisinə gətirib çıxarır. Dövlət tərəfindən ayrılan vəsaitlər bəzən müəyyən qurumlar tərəfindən israfçılıqla və şişirdilmiş şəkildə xərclənir. Məhz bunların qarşısının alınması istiqamətində ötən ildən başlayaraq daha intensiv şəkildə struktur və kadr islahatları həyata keçirilir. Eyni zamanda, büdcəyə nəzarəti təmin etmək üçün ictimai nəzarət də gücləndirilməlidir. Bunun da vacibliyini dəfələrlə ölkə başçısı vurğulayıb. Mövzuya geniş miqyasda yanaşanda, struktur islahatları davam etdirilməlidir. Bir-birinin təkrarlayan qurumlar birləşdirilməlidir. Ancaq indiki qısa zaman üçün daha operativ qərarların verilməsi zəruridir. Büdcəmizdə investisiyaya ayrılan vəsaitin çəkisi böyükdür. Onları ixtisar edib, növbəti ilə də saxlamaq olar. Cari xərclərin azaldılması ilə də bağlı büdcəyə xeyli qənaət etmək olar. Cari xərclərin əsas hissəsi dövlət qurumlarının saxlanmasına gedir.

Onların qənaət rejiminə keçməsi lazımdır. Onsuz da bunu dəfələrlə ölkə başçısı tələb kimi qoyub. Məmurlara tövsiyələr olunub ki, xidməti avtomobil kimi yerli istehal olan avtomobillərdən istifadə etsinlər. Kabinetlərinə bahalı xarici mebel almasınlar. Cari xərclərin azaldılması ilə bağlı qurumların qarşısına konkret tələblər qoyulsa yaxşı olar. Pandemiyadan sonra dövlət xərclərinə daha ciddi nəzarət edilməlidir. İmkan vermək olmaz ki, bir manat belə kənara getsin. Çünki pandemiya ilə mübarizə, bütün dövlətləri olduğu kimi, bizi də əlavə xərclərlə üz-üzə qoydu. Prezidentin çıxışından irəli gələn tapşırıqlara ciddi əməl edilməlidir ki, bu vəziyyətdən minimal itkilərlə çıxa bilək".

*Məhəmmədəli QƏRİBLİ*

**"Fermerlərimizin qarşılaşdığı çətinliklərdən biri də əkin mövsümü dövründə kiçikhəcmli kredit mənbələrinə çıxışın məhdud olmasıdır. Çünki banklar, əksər hallarda, güzəştli kredit ayırmaq üçün fermerlərdən Bakıda mənzil girovu tələb edirlər.**

# Nazir Prezidentin yanında Azərbaycan banklarının böyük qüsurunu açdı - Bakıda mənzil...

***Mirzə Əliyev:** "Dövlət başçısının aqrar sahənin maliyyələşdirilməsinin stimullaşdırılması ilə əlaqədar imzaladığı fərman fermerlərin kredit almaq imkanlarını asanlaşdıracaq"*




Ancaq Sizin bir neçə gün əvvəl imzaladığınız fərmana əsasən, fermerlərə girovsuz aqrar kreditin verilməsi mexanizmi formalaşdırılıb". Bunu Kənd təsərrüfatı naziri İnam Kərimov Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilmiş müşavirədə deyib.

Qeyd edək ki, ölkə başçısı İlham Əliyev ötən həftə aqrar sahənin maliyyələşdirilməsinin stimullaşdırılması ilə əlaqədar fərman imzalayıb. Fərmana əsasən, fermerlərin kredit almaq imkanları artıq asanlaşdırılacaq. Bundan sonra fermerlər banklara güzəştli kredit almaq üçün müraciət edəndə onlardan paytaxt Bakıda daşınmaz əmlak tələb edilməyəcək.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev bildirdi ki, Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə imzaladığı fərman aqrar sahənin dirçəlməsinə səbəb olacaq: "Dövlət başçısının aqrar sahənin maliyyələşdirilməsinin stimullaşdırılması ilə əlaqədar imzaladığı fərman fermerlərin kredit almaq imkanlarını asanlaşdıracaq. Yeni mexanizm fermerlərə girovsuz mikrokreditlər vermək imkanı yaradır. Məlumdur ki, kənd təsərrüfatı sahəsində çalışan fermerlərin təxminən 80 faizi kiçik və orta ailə-kəndli təsərrüfatlarına aid edilən fermerlərdir. Onların istifadəsində, ümumilikdə, 230 min hektar torpaq sahəsi var. Bu fermerlərin maliyyəyə çıxışı əsasən dövlət tərəfindən onlara ayrılan subdsidiyalar, güzəştli kreditlər və müxtəlif banklar tərəfindən təqdim olunan kommersiya kreditləri formasındadır. Ümumi mənzərəyə nəzər yetirdikdə görürük ki, bu sahədə təxminən 60 milyonluq bir kredit portfeli var və bu kateqoriyadan olan fermerlərə, ilindən asılı olaraq, 40-45 milyonluq subsidiya verilir. Lakin ümumi mənzərəyə baxdıqda görürük ki, fermerlərimizin əlavə olaraq 140 milyonluq vəsaitə ehtiyacı var. Bu ehtiyac yeni yaradılmış maliyyə instrumentləri vasitəsilə maliyyələşdirilə bilər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, banklar üçün bu məhsulu cəlbedici edən əsas istiqamətlərdən biri fermerlərin bank üçün yarada biləcəyi risqləri dövlətin qismən qarşılamasıdır:

**"Banklara ucuz vəsaitə çıxış verilməsi, risqlərin dövlət tərəfindən qismən qarşılanması bu məhsulu həm banklar, həm fermerlərimiz üçün cəlbedici edir. Eyni zamanda, hesab edirik ki, bu mexanizm fermerlərimizin maliyyəyə çıxış imkanlarını əhəmiyyətli dərəcədə atırracaq".**

*Günel CƏLİLOVA*

**"Kölgə iqtisadiyyatına" qarşı mübarizənin sərtləşməsi fonunda diqqət mərkəzində yer alan məsələlərdən biri də nağdsız ödənişlərin həcminin genişləndirilməsidir. Artıq son illərdə ölkədə bu istiqamətdə əhəmiyyətli irəliləyişlər əldə olunub.**

# Qlobal pandemiyanın gətirdiyi daha bir vazkeçilməz - təmassız ödənişlərə və nağdsız dövriyyəyə kəskin tələb...



Bu, həm də dünya miqyasında mövcud tendensiyaların Azərbaycanda da uğurla tətbiqinin göstəricisi kimi çıxış edir. Belə ki, "Business Insider Intelligence" nəşrinin mütəxəssislərinin hesablamalarına görə, 2023-cü ildə dünyada nağdsız əməliyyatların 1 trilyon ABŞ dollarını keçəcəyi gözlənilir. Onların fikrincə, bu, mobil və rəqəmsal texnologiyaların inkişafı sayəsində mümkün olacaq. Azərbaycanda da bu müddət ərzində nağdsız ödənişlərin miqdarının artması proqnozlaşdırılır. Digər tərəfdən, koronavirus məsələsi də indi nağdsız ödənişləri xeyli aktuallaşdırır. Elə Azərbaycan Banklar Assosiasiyası da nağdsız ödənişlərin virusa yoluxma təhlükəsini azaltmasına xidmət etdiyini bildirir. Qurum xatırladır ki, virus onun təmas etdiyi səthlərə toxunulma vasitəsilə də yoluxmaya səbəb ola bilir. Bu səbəbdən nağdsız ödənişlər təhlükəsizlik baxımından da mühüm önəm kəsb edir: "Həmçinin Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına əsasən, bu kimi virusların kağız əskinaslarla yayılmasının mümkünlüyünü nəzərə alaraq ödəniş kartı istifadəçilərinin ticarət və digər obyektlərdə ödənişlərini pos-terminallar vasitəsilə nağdsız formada həyata keçirməsi məqsədəuyğundur".

Qeyd edək ki, pos-terminallarda 50 manat və ondan aşağı məbləğlərdə PİN-kod daxil etmədən əməliyyatın aparılması mümkündür. Yəni kartı ticarət obyektlərinin kassirinə təqdim etmədən yalnız pos-terminala yaxınlaşdırmaqla ödəniş aparmaq olar. Hazırda ölkədə fəaliyyət göstərən 25 mindən çox təsərrüfat subyektində təmassız ödənişlər qəbul edən pos-terminal quraşdırılıb. Bu fonda ekspertlər nağd puldan istifadəni minimallaşdırmaq üçün kütləvi xarakter daşıyan xidmətlər, xüsusilə də kredit, kommunal, mobil telefon və digər ödənişlərin internet üzərindən və ya bankların təqdim etdiyi mobil, eləcə də internet bankçılıq xidmətləri vasitəsilə nağdsız formada həyata keçirilməsinə üstünlük verilməsini tövsiyə edir. Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və maliyyə institutları kafedrasının professoru Elnur Sadıqov məsələ ilə bağlı bildirir:"Koronavirus pandemiyasından öncə də ölkəmizdə nağdsız önədişlərin genişləndirilməsində müsbət tendensiya müşahidə edilirdi. Hər zaman nağdsız ödənişlərin həm sərfəli, həm də sağlamlıq cəhətdən üstünlüklərinin olması qeyd olunub. Kağız pullar müxtəlif bakteriyaların daşıyıcısı olmaq üçün əlverişlidir. Bu baxımdan hökumətin nağdsız ödənişlərin artması üçün atdığı addımlar da effektini göstərir. Baxmayaraq ki, insanlarımız müxtəlif qoruyucu əlcəklərdən istifadə edir, ancaq yenə də kartla ödəniş etməyə üstünlük verirlər. Aparılan müşahidələr göstərir ki, əhalinin əlindəki vəsaitlərin kartlara yerləşdirilməsi çox zəruridir. Düşünürəm ki, hazırda bu tendensiya ölkəmizdə yaxşı vəziyyətdədir". Digər tərəfdən vergi, rüsum, icarə haqqı və digər büdcə ödənişlərinin, həmçinin kommunal, rabitə və digər kütləvi xidmətlər üzrə ödənişlərin mərkəzləşdirilmiş qaydada toplanması məqsədilə Mərkəzi Bank tərəfindən yaradılmış "Hökumət Ödəniş Portalı" da indi prosesdə vacib rol oynayır. Onun infrastruktur imkanlarının inkişaf etdirilməsi ölkədə nağdsız ödənişlərin genişləndirilməsinə əlavə imkanlar yaradır. Belə ki, artıq bundan istifadə etməklə regionlarda, kənd yerlərində belə nağdsız ödənişlər həyata keçirmək mümkündür. Belə vəziyyət iqtisadi dövriyyələri şəffaflaşdırmaqla nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına da gətirib çıxarır. Bu da, öz növbəsində, vergi bazasının, əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının gücləndirilməsinə və son nəticədə iqtisadi artıma təkan verir. Digər tərəfdən o da faktdır ki, Azərbaycanda elektron hökumətin imkanları getdikcə artır. Dövlət qurumlarının göstərdiyi elektron xidmətlərin sayı və çeşidi də çoxalır. Artıq dövlət büdcəsinə ödənişlərin aparılması tam elektronlaşdırılıb. Hər bir vətəndaş və ya biznes subyekti internet vasitəsilə mobil və ya internet bankçılığın, o cümlədən plastik kartların köməyilə bu ödənişləri edə bilir. Bu isə o deməkdir ki, əhali elektron ticarətin reallaşmasında da yaxından iştirak edə bilər.

Belə vəziyyətdə artıq nağd puldan istifadə də əhəmiyyətli dərəcədə azalır. Hesab edilir ki, prosesin indi daha geniş miqyas alması üçün hökumətin stimullaşdırıcı addımları genişləndirməsi postpandemiya dövründə də nağdsız ödənişlərin miqyasının geniş miqyas alması ilə müşayiət ediləcək. Bi isə iqtisadi münasibətlərdə şəffaflaşdırma baxımından müstəsna əhəmiyyət kəsb edir. Belə görünür ki, qeyd edilən məqamları hökumət özü də xüsusi diqqət mərkəzində saxlayır.

*Ramil QULİYEV*

# Azərbaycan koronavirusla mübarizə dövründə "Evdə qal"dan "Evə gedirəm" mərhələsinə keçidə yaxınlaşır...

*Azər Həsrət: "Dövlət şərait yaranan kimi xaricdə yaşayan Azərbaycan vətəndaşlarının evə qayıtmasını reallaşdıracaq"*



*"Bizim xaricdə olan vətəndaşlarımız Azərbaycan dövlətinin bu təmənnasız qayğısını xüsusi qiymətləndirməlidirlər"*

**Bildiyimiz kimi, koronavirus dünyada yeni-yeni yayıldığı vaxtlardan Azərbaycan dövləti bununla bağlı həm önləyici tədbirlər həyata keçirməyə başladı, həm də xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərimizin, konsulluq və nümayəndəliklərimizin xətti ilə xaricdə yaşayan vətəndaşlarımıza səsləndi, onların vətənə qayıtması üçün tədbirlər gördü.**

Xaricdə yaşayan Azərbaycan vətəndaşlarının təxliyyəsi həyata keçirildi. Dövlətin təşkil etdiyi xüsusi çarter reysləri ilə dünyanın bir çox ölkəsindən vətəndaşlar ölkəmizə gətirildi.

Bildiyimiz kimi, ölkəmizdə karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar olaraq dövlətimiz bütün hava, quru sərhədlərini bağladı və bunun nəticəsində də ölkəmizə giriş-çıxış həyata keçirilmir. Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsinə və virusun yayılmasının qarşısının alınmasına, yoluxma hallarının lokallaşdırılmasına nail olmaq üçün atılan bu addım artıq effektiv nəticələr verməkdədir. Belə ki, artıq ölkəmizdə koronavirusdan sağalma bu virusa yoluxmanı üstələyib.

Məlum vəziyyətlə əlaqədar olaraq hazırda vətənə gələ bilməyən Azərbaycan vətəndaşlarının ölkəmizə təxliyyə edilməsi dövlətin diqqətdə saxladığı əsas məsələlərdən biridir. Xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərimiz, diplomatik korpuslarımız vətəndaşlarımızla daim əlaqə saxlayır, şərait yaranan kimi onların vətənə qayıdışının təmin olunacağı bildirilir. Bütün səfirliklərdə "qaynar xətt" yaradılıb və vətəndaşlarımız istədikləri vaxt həmin "qaynar xətt"lə əlaqə saxlayaraq məlumatlar alırlar.

Pandemiya ilə əlaqədar xarici ölkələrdə qalan və Azərbaycana gəlmək istəyən vətəndaşların təxliyyəsi nə zaman həyata keçiriləcək?

Bu məsələyə Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov aydınlıq gətirib və məsələnin gündəmdə olduğunu deyib: "Operativ Qərargah xaricdəki vətəndaşlarımızın aprelin 20-dən sonra ölkəyə qayıtması məsələsi barədə düşünür".

İ.Məmmədov deyib ki, artıq planlaşdırılır ki, aprelin 20-dən sonra bütün dünyadan həftədə 300-400 nəfər qəbul etmək imkanları yaranacaq: "Ən çox Rusiyadan gələnlər gözlənir. Rusiyadan gələnlər üçün xüsusi portal hazırlanır. Adı "Evə gedirəm" portalıdır. Aprelin 20-dən Rusiya, Türkiyə və başqa ölkələrdən həftədə 300-400 nəfərin təxricən ölkəyə qayıdışı təmin olunacaq".

TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib ki, bu say tibbi resurslara uyğun müəyyənləşir: "Ölkəyə gələn vətəndaşlar xüsusi karantində saxlanacaq. Xaricdən gələn vətəndaşlar bilməlidirlər ki, onlar karantində saxlanmaqla, müayinəsi təşkil ediləməklə ölkəyə gətiriləcək".

Bildiyimiz kimi, artıq hazırlanma prosesində olan "Evə gedirəm" portalı vətəndaşlarımızı ölkəmizə bir addım da yaxınlaşdırır.

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövləti öz vətəndaşlarının qayğısına həmişə qalıb. İstər ölkə daxilində, istərsə də ölkə xaricində yaşayan Azərbaycan vətəndaşlarının dövlət qayğısı ilə əhatə olunduğunu deyən A.Həsrət qeyd etdi ki, indiki şəraitdə Azərbaycanın öz vətəndaşlarını xarici ölkələrdən mərhələli şəkildə gətirməyi planlaşdırması, nəzərdə tutması müsbət haldır. Aprelin 20-dən sonra Türkiyə və Rusiyadan 300-400 vətəndaşımızın gətirilməsinin proqnozlaşdırılmasının əvvəl görülən işlərin davamı olduğunu deyən A.Həsrət hesab edir ki, Azərbaycan dövləti həmişə öz vətəndaşlarına sahib durub. "Bilirsiniz ki, ilkin mərhələdə minlərlə Azərbaycan vətəndaşı xarici ölkələrdən xüsusi çarter reysləri ilə ölkəmizə gətirildi, onlar karantinə alındılar, müalicəyə ehtiyacı olanlar dövlət hesabına müalicə olundular. Amma indi biz koronavirusla bağlı sosial təcridin, ciddi karantin rejiminin növbəti mərhələsindəyik. Təbii ki, burada bir qədər ehtiyatlı davranmağa ehtiyac var. Ona görə də Azərbaycan dövləti mümkün olduqca xaricdəki vətəndaşlarımızı mərhələli şəkildə təminat altında gətirməyə üstünlük verir. Bu da düzgün taktikadır. Çünki birdən-birə sərhədləri açıb "xaricdə kim var, buyursun gəlsin" demək, əlbəttə ki, böyük bir fəlakətə səbəb ola bilər. Ona görə də dövlət ehtiyatlı davranır, hazırlıq işlərini görür, ölkəyə gətiriləcək vətəndaşların karantin altına alınması, onların ayrıca yerləşdirilməsi, onların testdən keçirilməsi üçün tədbirlərini indidən görür. İndi bilirsiniz ki, dünyada olduğu kimi, Azərbaycanda da bu virusa yoluxanların sayı artır və artım başqa ölkələrlə müqayisədə bizdə fəlakət həddində deyil. Lakin, istənilən halda, biz dəqiq bilmirik ki, ölkədə vəziyyət tam olaraq necə proqnozlaşdırılacaq. Ona görə dövlət ehtiyatlı davranır".

A.Həsrət vurğuladı ki, yəni dövlət xaricdən gəlmək istəyənlərin gəlişinə etiraz etmir, onların ölkəmizə gəlişini təmin edir, amma mərhələli şəkildə. A.Həsrətin sözlərinə görə, xaricdəki vətəndaşlarımız ölkəmizə gətirilərkən karantinə alınmalı və onlar müvəqqəti təcrid edilməli, müayinədən keçirilməlidirlər. "Düşünürəm ki, bizim xaricdə olan vətəndaşlarımız Azərbaycan dövlətinin bu təmənnasız qayğısını xüsusi qiymətləndirməlidirlər. Hesab edirəm ki, ümumiyyətlə, xaricdəki vətəndaşlarımız orada uzun müddətdir yaşayıblar, çalışıblar, indi isə onlar vətənə dönmək istəyirlər. Rusiyadan da gəlmək istəyən vətəndaşlarımız çoxdur. Mən onların yerinə olsaydım, yeməyim-içməyim, qalacaq yerim olsaydı, gəlməyə cəhd etməzdim. Çünki indiki şəraitdə ölkədən-ölkəyə getmək yoluxma risqini daha da artırır. Yəni o vətəndaşlar özləri sağlam olsalar da, onların yolda yoluxma ehtimalı ola bilər. Evdən bayıra çıxmayan vətəndaşlar bayıra çıxdıqdan sonra onun təmasları artacaq, bu da risq deməkdir. Təbii ki, belələri özünü də təhlükəyə atacaq və ölkəyə qayıtdıqdan sonra başqalarını da bu risq altında qoyacaq" - deyə bildirən A.Həsrət hesab edir ki, Rusiyada yaşayan imkanlı azərbaycanlılar orada yaşayan imkansız vətəndaşlarımızı xüsusi qayğı altına almalı, onları himayə etməlidirlər. "Bilirik ki, Rusiyada yaşayan azərbaycanlılar arasında imkansızlar da var, onlar günəmuzd işləyənlərdir.

**Ona görə də imkanlı azərbaycanlılar onları himayə altına almalıdırlar ki, onlar təhlükəsiz olsunlar və əziyyət çəkməsinlər. Pandemiya bitdikdən sonra isə o insanlar dövlət tərəfindən vətənə gətiriləcək. Hesab edirəm ki, dövlət şərait yaranan kimi xaricdə yaşayan Azərbaycan vətəndaşlarının evə qayıtmasını reallaşdıracaq, çünki bununla bağlı artıq yeni mərhələyə hazırlıq prosesi başlanır" - deyə bildirən A.Həsrət, bununla belə, yenə indiki vəziyyətdə xaricdə yaşayan vətəndaşlarımızın öz yerlərində qalmasını tövsiyə edir.**

***İradə SARIYEVA***

# Azərbaycanda COVID-19-a qarşı yeni layihəyə start verildi - REACT-C19

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü, Heydər Əliyev Fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB və Səhiyyə Nazirliyinin dəstəyi ilə Azərbaycanın regionlarındakı xəstəxanalarda COVID-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar əsas bacarıqları gücləndirmək üçün REACT-C19 layihəsinə start verilir.**




## *Koronavirusdan sağalmış xəstələrdən gələn həftədən plazma götürülməsinə başlanacaq*

"Trend"in məlumatına görə, layihənin təqdimatında çıxış edən Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin sədri Ramin Bayramlı bildirib ki, layihədə Türkiyədə çalışan 19 azərbaycanlı həkim iştirak edəcək.

Layihənin məqsədi hazırda COVID-19-a yoluxmuş xəstələrin müalicəsi üçün bölgələrdəki seçilmiş xəstəxanalarda COVID-19-la bağlı əsas bacarıqları sürətlə inkişaf etdirməkdir.

Layihə çərçivəsində bölgələrdə yerləşən xəstəxanalarda çeşidləmə "triaj" sisteminin tətbiqi, infeksiyaların qarşısının alınması və nəzarət, xəstəlik hallarının idarə olunması, reanimasiya sistemlərinin qurulması, xəstəxanalardakı heyətə lazımi sistemlərin yaradılması və uzunmüddətli saxlanılmasıilə bağlı sürətli təlimlər keçmək, bu xəstəxanalarda yeni təlim keçmiş kadrları dəstəkləmək üçün onlayn, mobil və ya rəqəmsal texnologiyalar yaratmaq nəzərdə tutulur.

Türkiyədən gəlmiş azərbaycanlı həkimlərdən formalaşdırılmış dörd heyətin hər birində infeksiyanın qarşısının alınması və nəzarət, triaj, yoluxma hallarının idarə olunması və Ağır Kəskin Tənəffüs Sindromu (SARS) üzrə mütəxəssislər təmsil olunur.

Qeyd etmək lazımdır ki, bu mütəxəssislər Türkiyənin seçilmiş universitetlərində təlimlər keçib, sözügedən sahələr üzrə praktiki təcrübələr əldə edib və müvafiq təlimat alıblar. Bununla yanaşı, onlar dəyişikliklərin idarə olunması və stresslə mübarizə ilə bağlı da biliklərə yiyələniblər. Həkimlər və tibb bacıları öz sahələri üzrə mütəxəssis olduqlarından,təlimlərin məqsədi onların bilik və bacarıqlarını yeniləmək və standartlaşdırmaq, onları əlavə innovativ vasitələrlə təmin etmək olub. Xəstəxana hazırlıq heyətləri seçilmiş xəstəxanaların direktorları və baş həkimlərinin rəhbərliyi altında hər xəstəxanada 2 həftə ərzində təlim keçəcəklər. Hərkomanda növbəti xəstəxanada fəaliyyətə başlamazdan öncə cari xəstəxanadakı heyətə sistemi idarəetmə məsuliyyətini təhvil verəcək.

Layihə çərçivəsində tibb işçiləri üçün onlayn platforma daistifadəyə veriləcək və bu platforma vasitəsilə onlar təlimlərvə təqdimatlar, mentorlardan video dərslər və statistikməlumatlar əldə edə biləcəklər.

Türkiyədən gələn həkimlərin Bakıda çalışacağı xəstəxanalar açıqlanıb. Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlının sözlərinə görə, bunlar "Yeni klinika", Mərkəzi Neftçilər Xəstəxanası, Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik və Cərrahiyyə Klinikasıdır: "Yeni klinikada hazırda 100-dən çox xəstə müalicə alır: Onların içərisində ağır xəstələr üstünlük təşkil edir".

TƏBİB sədri qeyd edib ki, Azərbaycanda COVID-19-un hansı genotipinin yayıldığını öyrənmək maraqlıdır: "Bununla bağlı tədqiqatın nəticələrini bölüşəcəyik".

Növbəti həftədən etibarən koronavirusdan sağalan şəxslər Milli Hematologiya və Transfuziologiya Mərkəzinə dəvət ediləcək. Bunu da TƏBİB sədri Ramin Bayramlı deyib.

Onun sözlərinə görə, ölkədə bütün müalicə metodlarından istifadə olunur: "Koronavirusdan sağalan şəxslərin qanlarındakı plazmalarında olan anticisimlər virusa qarşı yetərli olsa, onlar terapevtik məqsədlə ağır xəstələrə köçürülə bilər. Bununla bağlı layihə bu gün Səhiyyə Nazirliyində müzakirə olunacaq".

R.Bayramlı qeyd edib ki, istifadə edilmiş maskaların haraya atılması insanların sosial məsuliyyəti ilə bağlıdır və bu maskalar tibbi tullantı deyil.

Ramin Bayramlı deyib ki, ölkədə həkim çatışmazlığından söhbət gedə bilməz. Onun sözlərinə görə, Azərbaycanda koronavirusdan sağalan xəstələrin sayı real göstəricilərdir:"Gələcək günlərdə bu rəqəm daha da arta bilər. Ölkədə həkim çatışmazlığından söhbət gedə bilməz. Bu gün çarpayı ehtiyatının 30-40 faizi istifadə edilir. Ümid edirəm ki, biz çox az zərərlə bu prosesdən çıxacağıq".

COVID-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar əsas bacarıqları gücləndirmək üçün həyata keçirilən REACT-C19 layihəsinin sahə koordinatoru Hamza Zeytunoğlu isə qeyd edib ki, REACT-C19 layihəsi çərçivəsində ilk olaraq 16 xəstəxanada koronavirusla mübarizədə dəstək üçün işlər aparılacaq. "Onlar əvvəlcə Bakıda 4 xəstəxanada, daha sonra regionlarda koronavirus pandemiyası ilə mübarizədə Azərbaycana dəstək verəcəklər".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı əlavə edib ki, layihədə iştirak üçün çox sayda müraciət olsa da, bəlli kriteriyalara uyğun olan 19 nəfər həkim seçilib: "Onlar İzmirdə 1 həftəlik təlim keçdikdən sonra özəl təyyarə ilə Azərbaycana gətirildi".

# Həyatını risqə atan həkimlərimizə Azərbaycan cəmiyyəti təəssübkeşlik edə bilirmi...

**Koronavirus pandemiyası ilə mübarizədə ön xəttə dayanan həkimlər ordusu həm xəstəliyə yoluxanların, həm də bəşəriyyətin xilası üçün çalışır. Ağ xalatlı həkimlər, ümumilikdə, tibb işçiləri koronavirus əleyhinə tədbirlərdə fədakarlıq göstərirlər.**



## *Nigar Arpadarai: "Pandemiya zamanı əmək fəaliyyətinə görə xəstələrlə birbaşa ünsiyyətdə olan peşə sahibləri üçün həyat sığorta mexanizminin tətbiqi zəruridir"*

Koronavirus pandemiyası ilə mübarizənin bir nömrəli qəhrəmanları, sözsüz ki, həkimlər, tibbi personaldır. Belə durumda onların işinin nə qədər ağır olduğunu təxmin etmək elə də çətin deyil. Bunu anlamaq üçün təkcə günümüzün qəhrəmanlarının 12 saat fasiləsiz skafandr geyimində çalışdığını düşünmək kifayət edər.

Məlumdur ki, koronavirusla mübarizə aparan həkimlərimiz evlərində qalmır, onlar xüsusi otellərə yerləşdirilib. Nəzərə almaq lazımdır ki, həkimlər hər gün koronaviruslu xəstələrlə təmasda olduqları üçün ailə üzvlərini yoluxdurmaq risqləri yüksəkdir.

Qeyd edək ki, ağ xalatlı qəhrəmanlar hər gün 8-14 saat işləmək məcburiyyətindədirlər. Onlar oteldən çıxıb işə gəldikləri andan iş gününün sonuna qədər geyindikləri skafandrı çıxara bilməzlər. Çünki bu halda virusa yoluxa bilərlər. Bu səbəbdən həkimlər heç bir ehtiyaclarını ödəyə bilmirlər. Yəni nə yemək yeyə, nə su içə, nə də təbii ehtiyaclarını ödəyə bilirlər. Bu səbəbdən pampers bağlamaq zorundadırlar. Maska və eynək taxmaqdan isə üzləri pis vəziyyətə düşüb.

Koronavirusla mübarizə aparan ATU Tədris Cərrahiyyə Klinikasının həkimi uroloq Məmməd Məmmədov sosial şəbəkə vasitəsilə qeyd edib ki, o, könüllü olaraq xəstəxanaya gəlib: "Aprelin 3-dən hər gün 8 saat olmaqla növbə ilə xəstələrin yanında oluruq. Virusla amansız mübarizə aparırıq. Kiçik bir ehtiyatsızlığımız xəstənin halının dəyişməsinə gətirib çıxara bilər. Həm də virus bizə keçməsin deyə, atacağımız addımları belə ehtiyatla və dəqiq edirik. Hər kəs ailəsini və özünü düşünür, amma biz vətənə və millətə qulluq etməyi düşünüb bu yolu seçdik. Təsəvvür edin ki, 8 saatlıq müddətdə su içmirik və yemək yemirik, havakeçirməz kombinzonun içində oluruq. Amma, nəyin bahasına olursa-olsun, bütün çətinlikləri adlayacağıq".

Təəssüf hissilə qeyd edək ki, koronavirusla mübarizə aparan həkimlər arasında adıçəkilən virusa yoluxanlar da var. Ancaq koronavirusa yoluxan həkimlərin sayı çox deyil. TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı media nümayəndələrinə açıqlamasında bildirib ki, bir tibb müəssisəsində 6 nəfər virusa yoluxmuşdu. Hazırda həmin həkimlər sağalıblar.

Onu da qeyd edək ki, pandemiya dövründə COVID-19 virusuna yoluxmuş xəstələrlə birbaşa təmasda olan həkimlərin, tibb işçilərinin dövlət tərəfindən sosial müdafiəsi istiqamətində tədbirlər həyata keçirilib. Prezident tərəfindən onların əməkhaqqının artırılması barədə sərəncam imzalanıb. Əməkhaqlarına əlavələr edilir. Bundan əlavə, tibbi personalın bu virusdan qorunması üçün bütün lazımi avadanlıqlar təmin edilir.

*"...bu, elə real məbləğ olmalıdır ki, həkimlərdə güvən yaratsın"*

Maraqlıdır, ictimaiyyət virusa yoluxmuş həkimlərə nə kimi dəstək verməlidir?

Millət vəkili Nigar Arpadarai hesab edir ki, həkimlər üçün həyat sığortası mexanizmi tətbiq olunmalıdır: "Pandemiya zamanı əmək fəaliyyətinə görə xəstələrlə birbaşa ünsiyyətdə olan peşə sahibləri üçün həyat sığorta mexanizminin tətbiqi zəruridir. Çünki bu insanlar hər gün təhlükə ilə qarşılaşırlar. Həkimlərimizi qorumalı, onların sabaha güvənini artırmalıyıq. Bu insanların güvəni olmalıdır ki, onlara sabah nəsə olarsa, ailələri dövlət tərəfindən dəstəklənəcək. Fikrimcə, hazırkı vəziyyətdə, karantin vaxtı bunu təcili tətbiq etmək lazımdır. Lakin bu, mütləq qanunvericilikdə öz təsbitini tapmalıdır. Pandemiya dövründə qanunvericilikdə buna bənzər təcrübələrdən istifadə edərək, tibb işçilərinin həyat sığortası mexanizmi yaradıla bilər. Buna misal kimi hərbçilərin həyat sığortasını göstərmək olar. Bunu hazırkı şəraitdə etmək çox vacibdir. Tibb işçilərinin həyat sığortasında əmək fəaliyyəti dövründə ölüm halları, əlillik və sağlamlığı üçün ciddi təhdid yaradan hallar olarsa, bu sığorta işləməlidir. Lakin bu, elə real məbləğ olmalıdır ki, həkimlərdə güvən yaratsın".

*Günel CƏLİLOVA*

# Azərbaycanın korona ilə mübarizədə uğurunu təmin edən səbəblərdən biri - yas adı ilə yalandan SMS yazanlar da həbs edilir...

**Günümüzdə koronavirus bəlası, onun yayılması, yoluxanların və ölənlərin sayının artması dünya gündəmini məşğul edib. Koronavirusun ölkəmizdə sürətlə yayılmaması üçün karantin rejimi tətbiq olunub.**

*"...bəzi vətəndaşlar öz sağlamlıqlarına biganə yanaşırlar"*

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində ölkədə hərəkət məhdudiyyətləri müəyyən olunub. Yeni qaydalara əsasən, aprelin 5-dən etibarən Azərbaycanda vətəndaşlar yaşayış yerini tərk etmək üçün icazə almaq məqsədilə 8103 nömrəsinə SMS-lə məlumat verməlidirlər.

Təəssüf ki, bəzi şəxslər yas mərasimində iştirak etmək adı ilə həqiqətə uyğun olmayan və ya yaxın qohumluq statusu daşımayanların yas mərasimlərində iştirak etmək bəhanəsi ilə qanunsuz yerə 8103 qısa nömrəsi vasitəsilə icazələr alaraq, epidemiya əleyhinə rejimin tələblərini pozurlar. Həmin şəxslər müəyyən edilərək həbs olunublar.

Ekspertlər də hesab edirlər ki, pandemiya dövründə yanlış məlumat verib çölə çıxanlar mütləq cəzalandırılmalıdırlar.

Psixoloq Könül İsmayılova qeyd etdi ki, koronavirusla mübarizə məqsədilə hökumətin qəbul etdiyi bütün qərarlar ictimaiyyət tərəfindən müsbət qarşılanır: "Azərbaycan dövlətinin koronavirusla mübarizə sahəsində apardığı səmərəli mübarizə tədbirlərindən biri kimi ölkədə karantin rejiminin tətbiq edilməsi və aprelin 5-dən qaydaların daha da sərtləşdirilməsi vətəndaşlarımızın sağlamlığı, bu virusa yoluxmaması namənədir. Məlumdur ki, aprelin 5-dən vətəndaşlarımız evdən çölə çıxmazdan əvvəl 8103 qısa nömrəsinə SMS göndərirlər. Bu sistem o qədər operativ qurulub ki, SMS yazılan kimi dərhal da cavab verilir.

***Könül İsmayılova:** "Yasa getmək adı ilə yalandan SMS göndərənlər cəzalandırılmalı, həbs olunmalıdır"*




Aidiyyəti qurumlar vətəndaşın sağlamlığının qorunması üçün öz işini yüksək səviyyədə həyata keçirsələr də, bəzi vətəndaşlar öz sağlamlıqlarına biganə yanaşırlar. Yasa getmək adı ilə yalandan SMS göndərənlər cəzalandırılmalı, həbs olunmalıdır".

***Günel CƏLİLOVA***

# Azərbaycanın sosial dəstək paketində bunu da gördük - ödədiyi təhsil haqları geri qaytarılan tələbələr kimlərdir...

**Nazirlər Kabinetinin qərarı ilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin ödədikləri təhsil haqları geri qaytarılacaq. Bunu Təhsil nazirinin müavini İdris İsayev deyib. Onun sözlərinə görə, bu, dövlətin humanist yanaşmasıdır:**

*"Universitet müəllimi olaraq dəfələrlə şahidi olmuşam ki, bəzi ailələr təhsil haqqını ödəməkdə çətinlik çəkirlər"*

"Elə tələbə var ki, o, sosial baxımdan həssas tələbə kateqoriyasına aiddir, amma təhsil haqqının bir hissəsini apreldə ödəyib. Ədalətli yanaşma bundan ibarətdir ki, vəsaiti ödəyib-ödəməməsindən asılı olmayaraq, dövlət həmin vəsaiti belə tələbələr üçün ödəyəcək. Artıq ödənilmiş vəsaitlər növbəti semestrlər üzrə təhsil müəssisəsi tərəfindən təhsil haqqı kimi əvəzlənə və nəzərə alına bilər".

İ.İsayev onu da qeyd edib ki, təhsil səviyyəsini bitirmək üzrə olan tələbələrin də təhsil haqları geri qaytarılacaq: "Ola bilər ki, tələbə 4-cü kursda oxuyur və artıq təhsil haqqını ödəyib. Onların da təhsil haqqı geri qaytarılacaq. Çünki bu tələbələrin ailələrinin gəlirləri təhsil haqlarını ödəməyə imkan vermir. Onlar bu vəsaitləri ya kredit, ya da yaxın qohumlarından, tanışlarından aldıqları vəsait hesabına ödəyirlər. Dövlətin humanist yanaşması ondan ibarətdir ki, tələbənin təhsil haqqını ödəyib-ödəməməsindən asılı olmayaraq, bu vəsait qarşılanır".

Qeyd edək ki, koronavirus pandemiyası ilə əlaqədar Nazirlər Kabinetinin qərarı ilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Tələbənin təhsil haqqı xərcinin 50 faizi 2019-2020-ci ilin yaz semestri üzrə, 50 faizi isə 2020-2021-ci tədris ilinin payız semestri üzrə elektron qaydada ödəniləcək.

Son qərar Azərbaycan hökuməti tərəfindən növbəti sosialyönümlü bir addımdır. O baxımdan bunun sosial əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

***Məhərrəm Zülfüqarlı:** "Bu baxımdan, dövlətin məlum qərarı əvəzolunmaz sosial əhəmiyyətə malikdir"*



Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri, təhsil eksperti Məhərrəm Zülfüqarlının fikrincə, sözügedən qərarın böyük sosial əhəmiyyəti var: "Son bir ildə dövlət sifarişi ilə təhsil alanların sayı artır. Koronavirusla əlaqədar olaraq dövlət həssas qrupa aid tələbələrin təhsil haqlarını öz üzərinə götürür. Bu, kifayət qədər böyük köməkdir və vacib sosial əhəmiyyətə malikdir. Bu tərəfdən də təhsil haqqını ödəyən həmin ailələrin pulu geri qaytarılacaq. Universitet müəllimi olaraq dəfələrlə şahidi olmuşam ki, bəzi ailələr təhsil haqqını ödəməkdə çətinlik çəkirlər. Hətta təhsil haqqını aylara bölürlər ki, hissə-hissə ödəsinlər.

**Elə tələbələr olub ki, təhsil haqqını ödəmədiklərinə görə ali məktəbdən xaric olunublar. Bu baxımdan, dövlətin məlum qərarı əvəzolunmaz sosial əhəmiyyətə malikdir. Sosial baxımdan həssas ailələr üçün bu böyük köməkdir. Həm yaranan sıxıntıdan çıxmaq, həm də uşaqlarının təhsilini davam etdirmək sahəsində dövlətin atdığı addım təqdirəlayiqdir. Ona görə də bunun əhəmiyyətini yüksək qiymətləndiririk".**

***Vidadi ORDAHALLI***

№ 59 (4190) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

17 APREL 2020-ci il

www.baki-xeber.com



# Süni ağciyər ventilyasiya aparatı "3D" printerdə çap ediləcək

**Hirosima Universitetinin alimləri digər ölkələrin həkimlərinə süni ağciyər ventilyasiya aparatının üçölçülü printerdə çap edilməsi üçün çertyojları pulsuz təqdim etmək niyyətindədirlər.**

"İctnews.az" bildirir ki, koronavirusa yoluxan xüsusilə ağır xəstələrin həyatının asılı olduğu süni ağciyər ventilyasiya aparatlarının çatışmazlığı bütün dünyada müşahidə edilir. Yaponiya alimləri müxtəlif ölkələrin həkimlərinə bu problemin həllində kömək üçün çatışmayan tibbi avadanlığın istehsal prosesini ucuzlaşdırmaq qərarına gəliblər. Bildirilir ki, mexaniki süni ağciyər ventilyasiya aparatı 2017-ci ildə yapon həkim Naoyuki İsikata tərəfindən kosmonavtların istifadəsi üçün yaradılıb. O, Beynəlxalq Kosmik Stansiyada uğurla çap edilərək yığılıb. Yay mexanizmi ilə təchiz olunan qurğu elektrik enerjisindən istifadə etmədən işləyir. Aparat əvvəlcədən "3D" printerdə çap edilən dörd hissədən yığıla bilər. Ümumi istifadə üçün qurğunun çertyojları ilə yanaşı, çap və quraşdırma üzrə təlimatların təqdim edilməsi nəzərdə tutulur.



## Koronavirusun yarasalardan insana necə keçdiyi açıqlandı

**Kanadanın Ottava Universitetinin biologiya üzrə professoru Syuyxya Sya koronavirusun yarasalardan insanlara hansı yolla keçə biləcəyini açıqlayıb.**

"Oxu.az" xəbər verir ki, kanadalı alimin gəldiyi qənaətə görə, virusun yayılmasının əsas səbəbkarı küçə itləridir. Onlar yarasaları yeyərək, virusun yayılmasına şərait yaradıblar. Virusun itlərin bağırsağında asanlıqla yayıldığını qeyd edən alim onun sonradan mutasiyaya uğrayaraq, insan orqanizminə keçdiyini bildirib.

## Paraqvayda ölü hesab edilən qadın "dirilib"



**Paraqvayın cənubundakı Koronel-Ovyedo şəhərində ölü hesab edilən qadın "dirilib".**

"Trend" xəbər verir ki, xəstəxanada xərçəngdən müalicə olunan 46 yaşlı qadın növbəti baxış zamanı ölü hesab edilib. Yaxınları onu dəfn bürosuna apardıqdan sonra onun tərpəndiyini görüblər. Yenidən xəstəxanaya qaytarılan qadın müalicəyə davam edib.

## Koronavirusun mənbəyi haqqında yeni iddia...

**Böyük Britaniyanın Qlazqo Universitetinin alimləri müəyyən ediblər ki, heyvanlardan insanlara ötürülən yeni viruslar risqi müəyyən mənbədən asılı deyil.**

Başqa sözlə, koronavirus infeksiyasının daşıyıcısı olan yarasalar potensial təhlükəli patogenləri daşıyan digər heyvanlara nisbətən böyük təhlükə yaratmırlar.

"Milli.Az" xəbər verir ki, yeni təhlükəli xəstəliklərin yaranması mifini təkzib edən məqalə "Proceeding of the National Academy of Sciences" jurnalında yayımlanıb.

Tədqiqatçılar 415 DNT, RNT virusları və onların təbii rezervuarları, o cümlədən, quşlar, məməlilər arasındakı əlaqələrə dair ən böyük məlumat toplayıblar. Elm adamları heyvanlardan insana keçə biləcək infeksiyaların tarixini də təhlil ediblər. Nəticədə məlum olub ki, infeksiya daşıyıcıları nadir hallarda virusları insanlara yoluxdura bilərlər. Məməlilərin quşlardan daha yüksək virus müxtəlifliyinə sahib olduğunu nəzərə alsaq, insan infeksiyası üçün təhlükəli olan potensial say heyvan növünün zənginliyindən asılı olaraq artır.

Ənənəvi olaraq infeksiyanın mənbəyi hesab olunan heyvanlar - gəmiricilər və yarasalar - müvafiq ölçülü məməlilər qruplarında olduğu qədər infeksiyaya malikdirlər. Alimlər hesab edirlər ki, daşıyıcıları deyil, virusların xarakterik xüsusiyyətləri ötürülmənin proqnozlaşdırıcıları ola bilər.

Yarasalar koronavirus və Ebolanın mənbəyi olsa da, epidemiya və ya pandemiyaya səbəb ola biləcək təhlükəli viruslar digər vəhşi heyvan populyasiyalarında da yayılırlar. Bəşəriyyət üçün potensial təhlükələrin axtarışı indiki hala nisbətən daha çox heyvan növünü əhatə etməlidir.






**Qoç** - Xoş gün deyil. Nə özünüzdən, nə ətrafınızdakılardan baş tapırsınız. Uğur şkalası aşağı enməkdədir. Sonradan əsəblərinizi cilovlamadığınız, həddən artıq sərt iradlar bildirdiyiniz, aqressiv davrandığınız üçün özünüzü qınayacaqsınız.


**Buğa** - İşdə çətinliklər yaransa da, kefinizi pozmursunuz. Bu cür yanaşma təqdirəlayiqdir. Doğrudan da, şərait çıxılmaz deyil, əgər bir az çalışsanız, o, tezliklə yaxşılığa doğru dəyişəcək.


**Əkizlər** - Maraqlı tanışlıqlar mümkündür, ancaq bu gün rastınıza çıxan insanlar barədə düzgün nəticə çıxaracağınıza böyük şübhə var. Əlaqələrin başlanması və ya qırılması barədə qərarlar verməyə tələsməyin - hadisələrin inkişafına nəzər yetirin, necə hərəkət etmək lazım olduğu tezliklə aydınlaşacaq.


**Xərçəng** - Əməkdaşlıqdansa, müstəqil işləməyə üstünlük verin. Şəxsi xarakterli istənilən məsələnin həlli zamanı bütün maraqlı tərəflərin rəyini nəzərə alın. Sizdən müəyyən qurbanlar tələb olunur, ancaq bunlar sizi təşvişə salacaq dərəcədə qorxulu və dəhşətli deyil.


**Şir** - Mürəkkəb məsələlərə diqqət yetirin - onlar üzərində iş sizə maraqlı və faydalı olacaq. Ətrafınızdakıların sizin barənizdə nə fikirləşdikləri, rəhbərliyin müvəffəqiyyətlərinizin fövqündə olub-olmadığı barədə yox, gördüyünüz işlərin xoş sonluğu barədə düşünün.


**Qız** - Ciddi sarsıntı gözlənilmir. Çətinliklər yalnız axşam yarana bilər. Bu isə əsasən enerjinizin azalması ilə əlaqədardır. Diqqətinizi cəmləşdirə bilmir, tez-tez səhvlər edir, vacib məqamları nəzərdən qaçırırsınız.


**Tərəzi** - Yaxınlarınız sizi dəstəkləməyə, ideyalarınızın yerinə yetirilməsində kömək etməyə hazırdırlar. Bircə şeyin öhdəsindən gələ bilmirlər - bədbinliyiniz getdikcə artır.


**Əqrəb** - Sevdiyinizlə aranızda xırda anlaşılmazlıq yarana bilər, çıxış yolunu tez tapacaqsınız. Maraqlı tanışlıqlar və romantik macəralar mümkündür. Axşam ziyafətə getmək olar.


**Oxatan** - Danışıqlar pis keçmir, ancaq nəzərə almaq lazımdır ki, əldə edilən razılaşmanı tam hesab etmək olmaz. Yeni iş ortağınız və ya rəhbərlik barədə isə dolğun və düzgün qənaətə gəlmək olar.


**Oğlaq** - Bu günün gətirdiyi problemlərin həmısının öhdəsindən gələcəksiniz. İşgüzar ünsiyyət, peşəkar perspektivlərin müzakirəsi, sövdələr bağlamaq üçün münasib gündür. İşlə bağlı vacib məlumat ala bilərsiniz.


**Dolça** - Şərait dəyişəcək, həmçinin faydalı məlumat ala bilərsiniz. Nüfuzlu adamların dəstəyini qazanacaqsınız, bu, məqsədinizə doğru yolunuzu asanlaşdıracaq.


**Balıqlar** - Səhər çağı hər bir işdə ehtiyatlı olun. Qətiyyətli hərəkətlərdən çəkinin, işgüzar və şəxsi həyatınızda köklü dəyişikliklər etməyə cəhd göstərməyin. Hesablardakı səhvlər maliyyə itkilərinə səbəb ola bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## ABŞ-da iki ağzı ilə qidalana bilən ikibaşlı çəpiş yaşayır



**ABŞ-ın Viskonsin ştatında yerləşən fermalardan birində ikiüzlü, qədim Roma ilahının şərəfinə Yanus adlandırılan qeyri-adi çəpiş doğulub.**

"Oxu.az" xəbər verir ki, iki başı və dörd gözü olan heyvan hər iki ağzı ilə qidalana bilir. Sahibinin sözlərinə görə, onun yaxşı iştahası var. Adətən belə mutantlar çox yaşamır, lakin Yanus özünü çox yaxşı hiss edir və hazırda yerimәyi öyrənir. "Biz onun sağ qalması üçün əlimizdən gələni edirik", - deyə fermanın sahibi qeyd edib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.